

## Rusiyalı ekspert: "Ağdam Qarabağın parlaq incilərindən birinə çevriləcək"

3

# "Qarabağ Azərbaycandır" nidasından "Şuşa İli"nə!

8




*2020-ci il noyabrın 8-də Qalib Prezident, Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən demişdi: "Əziz Şuşa, sən azadsan!*



# Səs

№ 030 (6471) 17 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# İLHAM ƏLİYEV:

2



# "Müharibə istəmirik... Lakin hərbə hazırıq"

***A**zərbaycan Prezidenti, Ali Baş Komandan bütün çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, Ermənistan yanlış və çox təhlükəli yoldadır: "Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olun-mayıb. Çox yanlış və təhlükəli yoldadırlar.*

# Ermənilər Ermənistanda yaşamaq istəmirlər

***E**rmənistan dövləti, cəmiyyəti 44 günlük müharibənin başa çatmasından 1 il 3 aydan çox vaxt keçməsinə baxmayaraq bu savaşın ağır nəticələrindən, sarsıdıcı məğlubiyyətdən hələ də özünə gələ bilməyib. 30 il ərzində uydurma, saxta "ideyalara" əsaslanıb, işğalçı siyasət yürütməyin aqibətini erməni xalqı, lobbisi, hakimiyyəti aydın görür.*



3



## *Bir separatçıların təhdidləri qalmışdı...*

Məlum olduğu kimi, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ ərazilərindəki separatçı-quldur qalıqları indi də beynəlxalq hüquq səviyyəsində tanınan və işğaldan azad edilmiş Azərbaycan torpaqlarını...

# Ronaldo dünya rekordunu təkrarladı!



*"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo əfsanəvi braziliyalı oyunçu Romarionun rekordunu təkrarlayıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, 37 yaşlı hücumçu buna ötən gecə Premyer Liqanın 18-ci turu-*

16

## Bakıda ən ucuz və bahalı evlər haradadır?





## DİQQƏT: Müəllimlərin işə qəbulunda bu yeniliklər olacaq!

## Bu şəxslərin də pensiyaları artırıldı

6



2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin edildikdən sonra azı 6 il işləmiş və işləməkdə davam edən 1307 şəxsin...



## Mart ayında 9 gün iş olmayacaq

6

Gələn ay 8 Mart - Beynəlxalq Qadınlar Günü və Novruz bayramı ilə əlaqədar Azərbaycanda 9 gün iş olmayacaq. Publika.az-ın xəbərinə görə, Beynəlxalq Qadınlar Günü münasibətilə....

# İLHAM ƏLİYEV: “Müharibə istəmirik... Lakin hərbə hazırıq”

***Azərbaycan Prezidenti, Ali Baş Komandan bütün çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, Ermənistan yanlış və çox təhlükəli yoldadır: ”Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olun-mayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Biz hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq”.***

Təbii ki, 44 günlük İkinci Vətən Müharibəsində Azərbaycan bütün dünyaya qalib olduğunu, Ermənistanın isə kapitulyasiya olduqdan sonra ağlı başında olan heç kim ikinci dəfə bu oyuna girməz. Çünki biz xalq olaraq hər zaman sülhün tərəfdarı olmuşuq. Dövlətimiz də bu istiqamətdə idarə olunur. Lakin qan tökülməsinin, iqtisadiyyata böyük miqyasda zərər verilməsinin əleyhinə olsaq da, torpaqlarımızın düşmən tapdağı altında qalmasına göz yuma bilməzdik. Ermənilər isə bizim sülh tərəfdarı olmağımızdan sui-istifadə edir, vaxtaşırı cəbhə bölgəsində təxribatlar törədirdi. Bu azmış kimi, yeni ərazi iddiaları edir, lazım gələrsə, tanklarını Bakıya qədər sürəcəklərini bildirirdilər. Bütün bu haqsızlıqlar oğrunun bağırmasından başqa bir şey deyildi. Lakin bu dəfə doğrunun bağrı yarılmadı. Biz ermənilərin dünyaya satdığı, zaman-zaman özlərinin də inandığı yalanlara, miflərə və qəhrəmanlıq eposlarına məhəl qoymadan, deyim yerindədirsə, ”başımızı aşağı salıb” ordumuzu gücləndirirdik. Prezidentimiz bu barədə danışarkən qeyd edir ki, hər nə qədər torpaqlarımızın sülh yolu ilə azad edilməsini istəsək də, ermənilərin xislətinə də yaxşı bələd idik. Biz mütləq hər vəziyyətə hazır olmalı idik. Prezident İlham Əliyev bütün yüksək tribunalardan Azərbaycanın haqq işini müdafiə edir, dünyaya çatdırırdı. Lakin dövlətimizin başçısı çox yaxşı bilirdi ki, Azərbaycan xalqının qəlbindəki Qarabağ həsrəti hansısa xarici qurumun, dövlətin ümidinə qala bilməz. Çünki 30 ilə yaxın müddət ərzində heç bir külək əsdirməyən, bir yarpağı belə tərpətməyən ATƏT-in Minsk qrupu və digər təşkilatların bundan sonra fırtına qoparacağı inandırıcı deyildi. Azərbaycan isə torpaqlarını işğaldan azad etməyə hazırlaşırdı. Bu, elə bir hazırlıq idi ki, təkcə hərb sahəsini deyil, iqtisadiyyatı, siyasi münasibətləri özündə birləşdirirdi.








Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, Vətən müharibəsində qazandığımız zəfəri təmin edən ən mühüm amillərdən biri də iqtisadi müstəqilliyimiz idi. Əlbəttə, torpaqlarımızı haqsız, qanunsuz və xüsusi vəhşiliklə işğal edən terrorçu Ermənistan dövləti qeyri-qanuni şəkildə silahlanarkən, ata-baba yurdumuzu talan edib ”güclü” müdafiə sistemləri yaradarkən, biz də ağzımızı açıb ”göydən gələcək” loxmanı gözləyə bilməzdik. Lakin arsenalımıza daxil etdiyimiz müasir silahlar, qırıcı təyyarələr, pilotsuz uçuş aparatları, zirehli texnika və başqa hərbi vasitələr bizə kimlərinsə, xarici qüvvələrin və ya havadarların bəxşişi deyildi. Biz bütün silah-sursatı dövlət büdcəsindən orduya və ordu quruculuğuna ayrılan vəsaitlə almışıq. Və nəhayət, 2020-ci il sentyabrın 27-də xalqımızın uzun illərdir gözlədiyi həmin gün gəldi. Erməni təxribatına cavab olaraq başlanan əks-hücum əməliyyatları geniş vüsət aldı. Beləliklə, hərb və müstəqillik tariximizə qızıl hərflərlə həkk olunan 44 günlük Vətən müharibəsi başlandı. Düşmənin bir neçə ilə işğal etdiyi, 30 il müdafiə sistemləri quraraq möhkəmləndiyi torpaqlarımız Azərbaycan Ordusu tərəfindən ay yarım müddətində azad edildi. Və bütün dünya gördü ki, Azərbaycan ayağa qalxanda onun dizi üstünə tökülmüş işğalçılar qırıntı kimi ətəklərimizdən dağılmağa məhkumdur. Ümid edirik ki, Ermənistan və onun havadarları ağıllarını başlarına toplayacaq və növbəti dəfə odla oynamayacaqlar.



## ”İSTƏNİLƏN SÜLH MÜQAVİLƏSİ ERMƏNİSTAN ÜÇÜN, SADƏCƏ, KAĞIZ PARÇASI OLA BİLƏR”

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdama və Ağcabədiyə səfərləri də bir neçə cəhətdən əlamətdar oldu. Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişatı ilə tanışlıq zamanı Ali Baş Komandanımız həm ermənilərə, həm də onların himayədarlarına xatırlatdı ki, biz sülh istəyirik, sülh müqaviləsinin hazırlanmasına tərəfdarıq, amma bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və işğalçı ölkənin bizim ərazi bütövlüyümüzü tanımasından sonra mümkündür: ”Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq”.

”Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır... Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır”,-deyən dövlət başçımızın həm ölkədaxili, həm də xaricə istənilən səfəri Azərbaycanın gələcəyi ilə bağlı mühüm bəyanatların səsləndirilməsi, proqnozların dilə gətirilməsi və ya perspektivdəki planların ilk müjdəsinin verilməsi baxımından əhəmiyyətli olur və yadda qalır. Yəni ermənilər sülh, sabitlik, əmin-amanlıq və inkişaf istəyirlərsə, onda Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Əks-təqdirdə onlar üçün sülh də olmayacaq, sabitlik də, əmin-amanlıq da. Üstəlik, iqtisadi böhrandan heç zaman xilas ola bilməyəcəklər. Biz həm Birinci, həm də İkinci Qarabağ müharibələrində şəhid olmuş, itkin düşmüş, ömürlük əlilə çevrilmiş soydaşlarımızın qanının yerdə qalmaması üçün bütöv və qüdrətli Azərbaycan dövləti yaratmalıyıq və yaradırıq. Əgər kimsə bu prosesə mane olmaq istəsə, onda başı üstündə ”dəmir yumruğu” görəcək.Ermənistanın Azərbaycanla sülh sazişini imzalamağa hazır olmaması, təxribatlar törətməsi, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinin atəş açması rəsmi İrəvanın regionda sabitliyi yenidən pozmağa cəhdi kimi də dəyərləndirilə bilər.

Dövlət başçısı İlham Əliyev qeyd edib ki, bütün təhdid yarada biləcək cəhdlərin qarşısı alınacaqdır: ”Azərbaycan sülhün tərəfdarıdır. Ona görə də Azərbaycan rəsmi İrəvanın manevrlərini, yenidən qruplaşmalarını və təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün cəhdlərini izləyir. Bütün təhlükələr dərhal aradan qaldırılacaqdır.”

Müharibədən bir il keçməsinə baxmayaraq Ermənistan tərəfdə yenidən revanşist qüvvələrin baş qaldırması bir daha təsdiqləyir ki, ermənilər hələ bu müharibədən nəticə çıxarmayıblar. İqtisadi çöküş yaşayan, müharibənin fəsadlarını aradan qaldıra bilməyən bu ölkənin absurd fikirləri həqiqətən gülünc doğurur. Dövlət başçısı da dəfələrlə vurğulayıb ki, biz müharibə istəmirik. Amma revanşistlər unutmamalıdırlar ki, dəmir yumruq yerindədir. Bu gün Azərbaycan bütün istiqamətlər üzrə inkişafını davam etdirən, hərbi qüdrətini daha da gücləndirən qabaqcıl ölkələrdən biridir. Bu baxımdan, ermənilərin revanşist fikirləri, sadəcə, xəyal olaraq qalacaq. Ermənistan təkcə döyüş meydanında deyil, bütün istiqamətlərdə məğlub oldu. Ermənistanın yeganə çıxış yolu Azərbaycanın sülh çağırışlarına müsbət cavab verməkdir. Əks halda Ermənistanın mövcudluğu sual altında qalacaq.

***RƏFİQƏ HÜSEYNOVA***

# Rusiyalı ekspert: "Ağdam Qarabağın parlaq incilərindən birinə çevriləcək"



Bütün otuz illik işğal ərzində ermənilər Ağdamda, prinsipcə isə işğal etdikləri ərazilərin hər yerində azərbaycanlıların yaşaması faktını yaddaşlardan silməyə çalışıblar.

"İki sahil" xəbər verir ki, rusiyalı ekspert Yevgeni Mixaylov Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş rayonlara son səfərini şərh edərkən deyib. "Sadəcə olaraq, ermənilər Qarabağdan qovulacaqlarını gözləmədikləri üçün kifayət qədər vaxt və səy göstərmədilər. Eyni şey İrəvan xanlığı ilə də baş verdi - burada Azərbaycan keçmişinin demək olar ki, bütün mədəni irsi məhv edildi.

Məncə, Ağdam bütün mədəniyyət abidələrinin yenidən bərpa edilməsinə çalışılan şəhər olacaq və şəhər özü də müasir infrastruktura malik yeni Azərbaycan Qarabağının parlaq incilərindən birinə çevriləcək. Şübhə etmirəm ki, bütün Qarabağ dünya ictimaiyyətinə örnək kimi təqdim olunacaq. Bu, ölkə rəhbərliyinin təsbit etdiyi milli ideya üzərində qurularsa, kifayət qədər qısa müddətdə böyük nəticələr olar. Və məndə belə bir ehtimal var ki, bərpa üçün vəsaitin bir hissəsi beynəlxalq məhkəmələrin dəstəyi ilə keçmiş işğalçıdan da tələb olunacaq", - Y.Mixaylov qeyd edib.

# Ceyhun Bayramov və Sergey Lavrov arasında telefon danışığı olub



Fevralın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər. Cari ildə iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını nəzərə alaraq, tərəflər bu xüsusda təşkil ediləcək tədbirlərə dair fikir mübadiləsi aparıblar.

Nazirlər regiondakı vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri də müzakirə ediblər. Tərəflər, həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı, habelə Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda sədrliyi çərçivəsində əməkdaşlıq da müzakirə olunub.

# Əmək Münasibətləri ilə bağlı hesabatın layihəsi qəbul olunub



***Prezident İlham Əliyevin 17 mart 2017-ci il tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib. "İki sahil" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xəbər verilib. İclasda dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində 2021-ci il ərzində görülən işlər, əldə edilən nəticələr, qarşıda duran vəzifələr müzakirə edilib.***

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində 2021-ci il ərzində görülmüş işlər, əldə edilmiş nailiyyətlər barədə məlumat verib. Komissiyanın sədri hesabat dövründə "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" üzrə tapşırıqların icrası ilə bağlı fəaliyyətin davam etdirildiyini bildirib, bu sahədə qəbul edilmiş qanunvericiliyin icrasına nəzarət, formal məşğulluğun təşviqi, maarifləndirmə, elektron nəzarət sistemlərinin qurulması və digər istiqamətlərdə tədbirlərin həyata keçirildiyini vurğulayıb. O, Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2021-ci il tarixli Sərəncamına əsasən cari ilin yanvarın 1-dən minimum əməkhaqqının məbləğinin 300 manata çatdırılmasının əhalinin sosial rifahının qorunması, muzdla işləyən şəxslərin layiqli əmək şəraitinin təmin edilməsi, eləcə də işçilərin formal məşğulluğa təşviqinə xüsusi töhvə verdiyini, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını stimullaşdırdığını diqqətə çatdırıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə İşçi qrupun rəhbəri Anar Əliyev tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və monitorinqin təşkili ilə bağlı məlumat verib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov avtomobil nəqliyyatı sahəsində qeyri-formal məşğulluq halları barədə, bununla mübarizə sahəsində görülən işlər haqqında çıxış edib.

Müzakirələrdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının 2021-ci il üzrə fəaliyyətinə dair dövlət başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub. Komissiyanın sədri qarşıda duran vəzifələrin icrası, o cümlədən formal məşğulluğun təşviqi istiqamətində maarifləndirmə tədbirlərininin gücləndirilməsinə dair tapşırıqlar verib.

# Bir separatçıların təhdidləri qalmışdı...

## *Və ya erməni quldurlarının sonları nə vaxtdır?*

Məlum olduğu kimi, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ ərazilərindəki separatçı-quldur qalıqları indi də beynəlxalq hüquq səviyyəsində tanınan və işğaldan azad edilmiş Azərbaycan torpaqlarını "işğal altındakı artsax əraziləri" kimi təqdim edir, üstəlik, Birinci Qarabağ müharibəsi zamanı işğalçılardan təmizlənmiş rayon və kəndlərimizi də buraya əlavə ediblər. Bu barədə ötən yazımızda çıxış etmişdik:

https://sia.az/az/news/articles/931239.ht ml

Söz yox ki, sözügedən yığnağın saxta "parlamentinin" hansı tonda və necə hürməsinin bizim üçün heç bir əhəmiyyəti yoxdur, amma başqa tərəfdən barmağımız da tətikdən kənara çəkilməməlidir. Təbii ki, barmaqlar tətikdədir, tətikdə də olmalıdır zatən və biz bunu Baş Prokurorluğun İstindaq İdarəsinin rəsmi bəyanatından da gördük:

https://sia.az/az/news/politics/931172.ht ml

Daha dəqiq desək, sözügedən bəyanatda separatçıların baş quldurları Araik Arutyunyanın qısa zamanda saxlanılaraq Azərbaycan məhkəməsi qarşısında mühakimə olunacağı barədə vəd verildi. Əlbəttə, bu yaxşı xəbərdir və eyni zamanda, hər bir azərbaycanlının ürəkdən istədiyi bir vəddir, özü də onun reallaşmasını səbirsizliklə gözləyir! Bu da öz yerində. Amma...

Amma gəlin görək, bu məlumatdan sonra həyasızlaşmağa, hətta qudurmağa davam edən separatçılar guya öz təbirlərincə bizə - Azərbaycan dövlətinə, dövlət rəhbərliyinə və xalqına hansı təhdidləri irəli sürürlər?

Hə, bu kimi hallarda bir çoxları mövzu ilə bağlı fikirlərini açıqlayarkən deyirlər ki, əşşi, qoy hürsünlər da, onlar yalnız hürməyi bacarırlar və s. Amma məncə belə deyil və belə məsələlərə adekvat, daha sərt, daha möhkəm və zərbə xarakterli, özü də yalnız bəyanat xarakterli deyil, həm də fiziki cavablar verilməidir, separatçı köpəklərin ağızlarına ömürlük ağızlıq vurulmalıdır, həm də onlar yuvalarına qədər qovulmalıdırlar! Axı İTİ QOVAN kimi ifadəsi elə-belə işlədilməyib!

### Hələ bu harasıdır?

Beləliklə, separatçı ünsürlər Azərbaycanın Baş Prokurorluğunun məlum bəyanatından sonra hürərək bildiriblər ki, sən demə



Araik Arutyunyan "artsaxın subyektlik simvoluymuş" və Azərbaycanın istənilən təsiri ölçüyəgəlməz zorakılığa gətirib-çıxaracaq (?!) Bunu ermənilərin military_am teleqram kanalı yazır.

Hələ bu harasıdır? Separatçıların digər həyasızlıqlarına diqqət yetirək. SİTAT: "Artsax" yollarında hər azərbaycanlının hədəfə çevrilməsinə zəmanət verilir. Hər kəs hədəfə çevriləcək..."

Bu ünsürlər göründüyü kimi, Azərbaycan topğaında Azərbaycan vətəndaşlarına qarşı təhdid dili ilə danışmaları ilə yanaşı, Rusiyanı və digər ölkələri də heçə sayırlar. SİTAT: "Azərbaycan tərəfindən "işğal olunmuş ərazilərdə" (cümlə içərisindəki dırnaqlar bizimdir-R.R.) bu dalğanı nə Rusiya, nə də başqa ölkələr dayandıra bilməz. Bizə Azərbaycanın birinci şəxslərinin "artsaxın işğal olunmuş ərazilərində" hərəkət etdikləri bütün marşrutları məlumdur. Ona görə də azərbaycanlılar "artsax prezidentinin" həbsi ilə bağlı xəyallara dalmamışdan əvvəl düşünməlidirlər". İnanırıq və ümid edirik ki, isnitaq və kəşfiyyat orqanlarımız bu ləyaqətsiz və mənfur separatçıların həmin sərsəmləmələrini də diqqətdə saxlamaqdadırlar.

### Separatçı-quldur rejimi əhalini atəş hazırlığına cəlb edir!

Bu gün isə məlum olub ki, separatçılar Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdikləri ərazilərdə yaşayan erməniləri atəş hazırlığına cəlb etməyə başlayıblar. Bu barədə isə Birinci Qarabağ müharibəsində dinc azərbaycanlıların qanlarını axıtmış erməni cəlladı, hazırda separatçı-quldur rejimin "təhlükəsizlik şurasının katibi" kimi qələmə verilən Vitali Balasanyan hürüb. Onun sözlərinə görə, atəş hazırlığı müddəti 2022-ci ilin fevral-may aylarını əhatə edəcəkmiş...

Bütün bu fakktlar isə qeydə alınır və qeydə alınması ilə yanaşı, quldurların birdəfəlik məhv edilməsinə geniş şəraitlər yaratmış olur. Hətta Rusiya sülhməramlı kontingentinin harada, necə fəaliyyət göstərmələrindən asılı olmayaraq artıq əməli addımların atılmasına ciddi (!) zərurətlər yaranıb. Bu imkandan isə maksimum yararlanmaq və düşmən tör-töküntüləri ilə birdəfəlik qurtarmaq, necə deyərlər, işi bitirmək lazımdır. Hələ də gec deyil...

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ-ÖZƏL

# Dünya mətbuatı dövlət başçısının Ağdama səfərindən yazır













***Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Hər gün cəbhədən gələn qələbə xəbərləri, Azərbaycanın Müzəfər Ordusunun düşməndən əldə etdiyi hərbi qənimətlər və ermənilərin canlı itki verməklə geriyə qaçmaları, Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu kimi digər şəhərlərin, kənd və qəsəbələrin işğaldan azad olunması kimi müjdəli xəbərlər bizi Zəfərə doğru aparırdı.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın 30-dan artıq KİV-nə müsahibəsi hadisələrin geniş dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edirdi. Əlbəttə ki, 30 ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarımızın qarış-qarış düşməndən azad edən vətən oğulların qanı bahasına alınması dünyanın diqqətindən kənarda qalmadı və dünya erməni barbarlığını, vandallığını bir daha görmüş oldu. Əlbəttə ki, ölkəmizin dünya panoramasının diqqətdə olması müstəqillik dövründə beynəlxalq əlaqələrini gücləndirən Azərbaycanın yüksək bir imicə sahib olmasının təzahürüdür.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələr dünya mediasının diqqətindədir. Regiondakı vəziyyət və müharibədən azad olunan ərazilərimizdə aparılan abadlıq və quruculuq işləri və s. diqqətdədir. Son günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı ölkələrinin KİV nümayəndələrinə verdiyi müsahibələr, dövlət başçısının işğaldan azad olunan ərazilərimizə səfərləri və bu səfərlər çərçivəsində bir çox layihələrin təməlinin qoyulması və s. dünyanın aparıcı KİV-lərinin diqqətindən kənarda qalmayır.

Yaponiyanın "ajmedia.jp" saytı Prezident İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Ağdam rayonuna növbəti səfərləri barədə məlumatlar yayıb. Məqalədə Azərbaycanın dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın Ağdamda bir neçə yeni yarımstansiyanın açılışında iştirak etmələri, yeni sosial əhəmiyyətli obyektlərin təməlini qoymaları, Ağdam Cümə məscidi və Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində planlaşdırılan işlərlə tanış olmaları öz əksini tapıb. Yapon oxuculara Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksi haqda məlumat verilərək bildirilib ki, XVIII əsrə aid və iki binadan ibarət olan bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, bu tikili Pənahəli xanın imarəti də adlandırılıb. Əlbəttə ki, yapon oxucuları üçün Azərbaycana məxsus olan dini-mədəniyyt abidələri ilə bağlı məlumatların verilməsi böyük maraq kəsb edir. Neçə əsrlik bir dövrü əhatə edən bu və digər nümunələri xalqımızın tarixindən, mədəniyyətindən dünyaya bir mesajdır. Məlumatlarda vurğulanıb ki, işğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb, buradan tövlə kimi istifadə olunub.

Vurğulamaq yerinə düşər ki, Pənahəli xan sarayı və ya Pənah xanın imarəti - Ağdam şəhərində yerləşən və birinci Qarabağ xanı Pənahəli xanın yay sarayı olmuş XVIII əsrə aid tarix-memarlıq abidəsidir. Pənahəli xanın Ağdamdakı sarayı, xan nəslinin ən birinci mülklərindən olmaqla iki binadan ibarətdir. Çox güman ki, ilkin çağında bu kompleksə daha çox bina daxil olmuşdur. Bu kompleks Pənahəli xanın 1738-ci ildə Xorasandan qayıdıb, Qarabağda xanlıq quruculuğuna başladığı ilk illərdə inşa edilmişdir. Ağdam sarayı, bir-birinə perpendikulyar yerləşdirilmiş iki korpusdan ibarətdir. Əsas korpus, mərkəzi günbəzli zalın ətrafında qruplaşdırılmış tağtavanlı otaqlardan ibarətdir. Mərkəzi zalın qabağında cənuba istiqamətlənmiş geniş və dəbdəbəli eyvan yerləşir. Günbəzli zal divanxana xüsusiyyəti daşımış və Pənahəli xan burda qonaqlarını qəbul etmişdir. Saray yaxınlığında yerləşən İmarət qəbirsanlığında Qarabağ xan nəslinin bir çox nümayəndələri dəfn edilmişdir. Pənahəli xanın türbəsi və Xurşidbanu Natavanın qəbirüstü abidəsi də bu qəbirsanlıqda yerləşir. Saray, Azərbaycan ərazisində olan digər xan saraylarından fərqli olaraq parad xüsusiyyətlərinə malik olmayıb, yalnız dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyır. Buna görə də, elmi ədəbiyyatda bəzən Pənahəli xanın imarəti də adlandırılır.

Materiallarda diqqətə çatdırılıb ki, Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalaraq dağıdılıb.

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimiz yenidən qurulur, abadlıq və quruculuq işləri sürətlə aparılır. Görülən işlər ölkəmizə olan diqqəti daha da artırıb. Cənab Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq işğaldan azad olunan ərazilərdə reallaşan tədbirlər ölkəmizin iqtisadi gücünü bir daha göstərmiş olur.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Yeni Azərbaycançılıq məfkurəsi ilə yeni hədəflərə doğru!

**Bahar MURADOVA**

**YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru**

Tarixi zərurət, obyektiv reallıq və xalqın dövlətçilik arzularından qaynaqlanan tələbat nəticəsində Heydər Əliyev şəxsiyyətinin xilaskarlıq missiyasının reallaşması üçün Azərbaycanın tanınmış şəxsiyyətlərinin müraciəti əsasında yaranmış, qısa bir müddətdən sonra iqtidara gəlmiş, hazırda isə ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyasının sonuncu - VII qurultayından bir ilə yaxın vaxt keçir.

"Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsinin özünün VII ali məclisinədək keçdiyi şərəfli yol "Müstəqil, yeni Azərbaycan" naminə şüarı ətrafında Heydər Əliyevin bir çağırışı ilə birləşən milyonlarla azərbaycanlının uğrunda canını və qanını əsirgəmədiyi ölkəmizin yeni müstəqil dövlət kimi dinamik inkişafı, hüquqi, demokratik bir cəmiyyət quruculuğu yolu ilə həmahəngdir.

Bu illər ərzində Azərbaycanın əldə etdiyi tərəqqinin, iqtisadi-sosial inkişafın, vətəndaş rifahının bərqərar olmasının ideoloji sütunu kimi misilsiz fəaliyyətə imza atan YAP qazanılan bütün uğurların ilhamvericisi olmaqla yanaşı, həm də daim yeniləşən cəmiyyətlə birgə yenilənmiş, saflaşmış, müasir çağırışlara adekvat cavablar verməklə siyasi mübarizə cəbhəsində öncül yerini qoruyub saxlamışdır. Nəsillərin vəhdətinə əsaslanaraq xalqın bütün təbəqələrindən olan 100 minlərlə insanın bir ideya - Azərbaycançılıq, bir yol - Heydər Əliyev yolu və bir məqsəd - Azərbaycan uğrunda fəaliyyətini bir araya gətirərək onu ölkəmizin mənafeyi naminə səfərbər etməyə nail olmuşdur.

Onun gücü də məhz elə bundadır. Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan quruculuğuna rəhbərlik etdiyi dönəmlərdə onun həyata keçirdiyi daxili və xarici siyasəti mərkəzi qərargahdan ölkənin ən ucqar nöqtələrinə, hər bir vətəndaşa yetirməklə, onların istək, arzu və iradlarını isə mərkəzə çatdırmaqla qəbul edilən fəaliyyət planları, dövlət proqramları, formalaşdırılan siyasətlərdə nəzərə alınması üçün oynadığı əvəzedilməz rolundadır.

Hər bir evə, hər bir ailəyə yaxın olmasına, onların böyük Azərbaycan ailəsinin əsas nüvəsi olduğundan bütün bu proseslərin mərkəzində dayanmasına, bu səbəbdən də hər zaman dövlətə və dövlətçiliyə sadiq övladlar, məsuliyyətli vətəndaş formalaşdırılmasına ruhlandırmasındadır.

Sıralarında böyük üstünlük təşkil edən gənclərə geniş fəaliyyət imkanlarının yaradılması, onlarda vətənpərvərlik ruhunun möhkəmlənməsi, ölkədə aparılan davamlı islahatların həyata keçirilməsi və ictimai-siyasi sabitliyin qorunması işində gəncliyin enerjisi, fərqlənmək həvəsi və töhfə vermək arzularına hər cür dəstək olması isə partiyanın boy artımı və keyfiyyətcə yenilənməsinə stimul verməsindədir.

Bu səbəbdəndir ki, gücünü xalqın və onun müxtəlif təbəqələrinin dəstəyindən alan YAP məhz Heydər Əliyevin ona sədrliyi və ölkə Prezidenti kimi rəhbərliyi ilə Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların, fərqli dini baxışlara malik konfessiyaların vahid amal uğrunda fəaliyyətini əlaqələndirə bildi. Ölkənin bütün yaşayış məntəqələrində təşkilatı və insan resursları şəbəkəsinə malik olmaqla, geniş xalq kütləsinin daha çox inandığı, sıralarına qatılmaqla öz siyasi talelərini bu partiya ilə bağlamağa hazır olduqları möhtəşəm bir siyasi qüvvəyə, monolit gücə sahib oldu.

Onun üzvləri və təəssübkeşləri arasında yeniyetmə gənclər, ictimai-siyasi proseslərdə bərabər təmsil olunmaq istəyən gənc qızlar, xalqın və dövlətin həyatında yaxından iştirak etməklə töhfə vermək istəyən qadınlar, öz həyat təcrübəsini bölüşməklə yeni nəslin formalaşması işinə dəstək verən ahıllar, ağsaqqal və ağbirçəklər, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etməsi və gələcəyə ötürülməsi naminə bir çox ailə bütövlükdə Yeni Azərbaycan ailəsinə üzv olmağı məmnuniyyətlə seçdi.

Onların hamısını bir araya gətirən dövlətə, xalqa sevgi, Heydər Əliyev ideyalarına inam və sədaqət idi. Məhz bu əsasda həyata keçirilən fəaliyyət nəticəsində "Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmazdır" şüarı reallığa, Heydər Əliyev ideyaları isə onun inkişaf yoluna çevrildi.

Qarşıda isə "Qüdrətli və Zəngin Azərbaycan" quruculuğu kimi şərəfli missiya var idi. O missiyanı bu yola sadiqliyi ilə Azərbaycan xalqına və dövlətinə "yaxşı bir Prezident" olacağını vəd edən, həm siyasi, həm də fiziki mənada Heydər Əliyevin varisi, daha sonra müasir, inkişaf etmiş rifah dövləti quruculuğunu hədəf seçmiş İlham Əliyev davam etdirəcəkdi. Bunu həm Ulu Öndər, həm də onun xalqı istəmişdi. Bu mövqeyini xalqın mütləq əksəriyyəti növbəti seçim anında ona xaos və anarxiyanı deyil, sabitlik və inkişafı vəd edən namizəd olaraq İlham Əliyevə səs verərək təsdiq etmişdi. Onunla birlikdə Heydər Əliyev yolunu, ölkəmizin çiçəklənməsini, təhlükəsiz və ziddiyyətsiz ahəngdar inkişafını seçmişdi. Ölkənin ərazi bütövlüyü, suverenliyi naminə Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləmişdi. Növbəti həqiqət anının "Qalibi" də elə xalqın özü və ümumxalq partiyası olmuşdu.

İlham Əliyevin bu müddət ərzində bir neçə dönəm prezidentliyi və YAP-a sədrliyi dövrü öz dinamikliyi, bütün çağırışlara çevik cavabları ilə seçilən, ölkənin hər qarışına, sürətlə ötüb keçən zamanın hər saniyəsinə, ictimai-siyasi ab-havanın bütün parametrlərinə, xalqımızın hər bir nəfərinə hesablanmış siyasətin, taktiki gedişlərin, daxili və xarici təzyiqlərin azaldılmasına yönələn, məqsəd və hədəfləri, eyni zamanda nəticələri qabaqcadan proqnozlaşdırılan bir fəaliyyəti ehtiva edirdi.

Məhz Heydər Əliyev yoluna zamanın tələbilə yaradıcı münasibət nəticəsində əldə edilən yeni keyfiyyət yanaşmaları, kreativ düşüncə və ənənəvi dəyərlərin bir arada tutulması yeni dövr gəncliyinə istinad edərək ölkənin inkişaf istiqamətlərində dinamizm və modernləşmə meyillərinin möhkəmlənməsini şərtləndirdi. Mənfi stereotiplərin sürətlə aradan qaldırılmasını, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, bütün siyasi qüvvələrin konstruktiv dialoq vasitəsilə vətəndaş həmrəyliyi üçün səfərbər edilməsi sosial ədalətin bərqərar olması şərait yaradılmasına gətirib çıxardı.

Müxtəlif sosial qruplar arasında kəskin təbəqələşmənin yumşaldılmasına, həyata keçirilən dövlət siyasətinin sosialyönümlü olmasına, insan amilinin mərkəzə yerləşdirilməsinə şərait yaratdı.

Dini və etnik müxtəlifliyin inkişafa və zənginləşməyə xidmət etdiyini, multikultural dəyərlərin bu coğrafiyada yaşayan xalqların bir-birinə münasibətinin mahiyyətindən doğduğuna diqqətləri yönəltdi.

Yeni Azərbaycan Partiyasının demokratik ənənələrin inkişafına hələ özü müxalifət partiyası kimi qeydiyyatdan keçdiyi ilk illərdən verdiyi töhfələrə rəğmən ölkədəki siyasi qüvvələrlə münasibətlərində demokratik prinsiplərə, açıq və şəffaf fəaliyyətə üstünlük verməyi, bu sahədəki sağlam ənənələri siyasi dəyər kimi əsas götürməyi həm bəyan etdi, həm də ona bütün fəaliyyəti boyu sadiq qaldı.

Bütün bu nailiyyətlərin əldə edilməsinin, zaman keçdikcə həm sıralarının genişlənməsinin, nüfuzunun və təsir imkanlarının yüksələn xətlə artmasının, beynəlxalq siyasi partiya qrupları, o cümlədən Avropa və Asiya ölkələri siyasi partiyaları birlikləri və dost ölkələrin iqtidar və müxalifət partiyaları ilə ikitərəfli diplomatik, o cümlədən siyasi-iqtisadi münasibətlərimizin ruhuna uyğun əməkdaşlığının möhkəmlənməsinin ən əsas səbəbini, əlbəttə ki, onun öz fəaliyyətini uyğun qurmasında, həmçinin özünün proqram sənədi və nizamnaməsində bəyan edilən prinsip və qaydalara, qanunverici aktların tələblərinə, ən əsası isə insanlara, xalqımıza bəyan etdiyi hədəflərə çatmaq üçün davamlı, məqsədyönlü və yorulmaz bir şəkildə həyata keçirməsində axtarmaq lazımdır.

29 illik fəaliyyəti ilə Azərbaycanın iqtidar, regionun ən güclü və dünya miqyasında tanınan partiyası olaraq YAP hər gün daha artıq güclənən, inkişaf edən, iqtisadi-siyasi, sosial-mədəni və hərbi qüdrətini artıran ölkəmizin müstəqil, azad, demokratik vətəndaş cəmiyyəti quruculuğuna sadiq bir siyasi təşkilat kimi Azərbaycanla birgə böyüdü, mətinləşdi, xalqın inam və etimadına layiq olmaq üçün öz sıralarını saflaşdırmaqla zərərli meyillərə qarşı barışmaz mövqeyini ortaya qoydu.

Ölkədə gedən dərin islahatlar siyasətinin iştirakçısı və təbliğatçısı, yeniliklərə açıq, öz fəaliyyətinə tənqidi münasibətdən doğan prinsipiallıq nümayiş etdirərək ictimai-siyasi ab-havanın nəbzinə uyğun qətiyyətli addımlara hazır və qadir olduğunu göstərdi.

YAP-ın namizədi kimi yerli və milli seçkili orqanlardakı təmsilçilərinin, eləcə də təyinatlı vəzifələrdə olan üzvlərinin öz səlahiyyətləri və öhdəlikləri çərçivəsində, həmçinin ictimai və fərdi ölçüdə fəaliyyətlərini partiyanın ümumi məqsəd və məramına uyğun qurması məsələsini diqqətdə saxladı. Bu meyarları gözləməyənlərlə yollarını ayırdı. Həmçinin nümunəvi davranış sərgiləyənləri həm partiya, həm də dövlət səviyyəsində mükafatlandırdı.

Bununla da YAP yüz minlərlə siyasi fəal insana, soydaşlarımıza obyektiv və qərəzsiz, hər kəsə yalnız xidmətləri müqabilində münasibətin yeganə meyar olduğunun örnəyini yaratdı.

YAP özünün VII qurultayına 29 illik fəaliyyəti, xalqa və dövlətə xidmətləri, ən əsası, bu illər ərzində Heydər Əliyev ideyalarının reallığa çevrilməsində fədakarlıq və qəhrəmanlıq üçün, öz həyatını ümumi məqsədlərə, dövlətimizin və xalqımızın mənafeyi naminə sərf etməyə hazır olan insanların partiyası kimi, ölkədə formalaşmış yeni siyasi konfiqurasiyanın mərkəzi sübyekti, həmçinin onu qorumaq, inkişaf etdirmək uğrunda mübarizənin önündə gedən siyasi qüvvə kimi gəldi.

Bütün söylənilənlərin sübutu kimi bugünkü Azərbaycan, onun regionda və dünyadakı vacib mövqeyi, beynəlxalq proseslərin nüfuzlu aktoru kimi regional və qlobal miqyasda verdiyi töhfələr çıxış edir.

Ən nəzərəçarpan nəticə isə, əlbəttə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uzunömürlü ağır bir yükdən xilas olmaq, beynəlxalq və regional dairələrin iştirakı və dəstəyi ilə ərazilərin ilhaqı, işğalı etnik təmizləmə və soyqırımları ilə müşayiət olunan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi adlanan bir problemi hərbi-siyasi yolla, cəmi 44 günə həll etməsi ilə bu sahədə daşlaşmış stereotipləri və yanaşmaları kökündən dəyişməsi oldu.

Uzunmüddətli dondurulmuş münaqişələrin yalnız beynəlxalq güclərin deyil, indi artıq daha çox regional aktorların bilavasitə iştirakı ilə həll oluna biləcəyinə dair Azərbaycan nümunəsini ortaya qoymaqla proseslərin ağırlıq mərkəzini Azərbaycana doğru dəyişdi.

İlham Əliyevin qətiyyətli liderliyi, ordumuzun şücaəti, xalqımızın yenilməz ruhu sayəsində bütün dünya ictimaiyyəti ölkəmizin əldə etdiyi hərbi, siyasi, informasiya və diplomatiya sahəsindəki uğurunu qəbul etməklə yanaşı, indi onu ən müxtəlif baxış bucağından dəyərləndirməklə məşğuldur.

Regionda yeni siyasi, hərbi və iqtisadi reallıqlar Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin çoxvektorlu xarici siyasətinin ölkə daxilində əldə edilən vətəndaş həmrəyliyi, bütün siyasi qüvvələrin (kiçik istisna ilə) bir amal, bir məqsəd naminə Azərbaycan dövlətinin ətrafında birliyə söykənərək əldə etdiyi nəticələrdir.

Azərbaycanda 2018-ci ilin aprelində və 2019-cu ilin fevralında reallaşan erkən prezident, parlament seçkilərinin yaratdığı yeni siyasi konfiqurasiya ölkə və bölgə üçün qüvvələri səfərbər etməyin əsas dayaq nöqtəsi rolunu oynadı.

Bu prosesin uğurla sonuclanmasına yönələn fəaliyyətin önündə olmaqla, YAP və onun çoxminli üzvləri böyük töhfələr verdilər.

Ölkənin həyatında yeni bir dönəmin, yeni bir başlağıcın əsası ölkədə fəaliyyət göstərən ictimai-siyasi qüvvələrin YAP-ın öncül mövqeyinə sayğılı mövqeyi ilə müşayiət olunan konstruktiv əməkdaşlığı sayəsində qoyuldu.

*Ardı Səh. 6*

Əvvəli-Səh-5

# Yeni Azərbaycançılıq məfkurəsi ilə yeni hədəflərə doğru!

Odur ki, bütün bu tarixi uğurları qeyd edərək yeni dövrün çağırışlarına birgə cavab tədbirlərini müəyyənləşdirmək, ölkədaxili vətəndaş həmrəyliyinə istinad edərək siyasi qüvvələrin daha möhkəm birliyinə nail olmaq, qarşıda duran vacib məsələlərin birgə həlli yollarını müzakirə etməklə YAP-ın keçdiyi tarixi inkişaf mərhələlərini dəyərləndirmək, yeni hədəflər naminə yeni qərarlar qəbul etmək üçün YAP 2021-ci il mart ayının 5-də özünün VII qurultayını keçirdi.

Möhtəşəm Zəfərin doğurduğu böyük qürur və iftixar hissi ilə öz ali məclisinə toplaşan qurultay nümayəndələri qarşısında YAP-ın Sədri, cənab İlham Əliyevin dərin məzmunlu çıxışı keçilən tarixi yola obyektiv qiymət verilməsi ilə yanaşı, həm də partiyanın bu gündən sonra qarşısında dayanan əsas vəzifələri, YAP-ın yeni dövr üçün fəaliyyətinin əsas istiqamətlərini özündə əks etdirməklə yanaşı, ümumilikdə Azərbaycan Respublikasının, onun siyasi mənsubiyyətindən asılı olmayaraq bütün ictimai-siyasi cəhətdən fəal insanlarının, hər bir vətəndaşın, bütövlükdə isə hər bir azərbaycanlının qarşısında dayanan öhdəliklərin, onların yerinə yetirilməsi üçün vacib olan resurs və mexanizmlərin, hüquqi çərçivə və meyarların məcmusu idi.

Bu çıxış 29 illik çətin və şərəfli yolda əldə edilən nəticələrin üzərindən daim yeniləşən, inkişaf edən, öz xalqını layiq olduğu Qələbə ilə şərəfləndirən bir Liderin bu Qələbənin qorunması, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, insanların on illərlə çəkdiyi fiziki, iqtisadi və mənəvi əzablarına son qoymaqla öz yerinə-yurduna ləyaqətli qayıdışını, davamlı və dayanıqlı inkişafı təmin etmək, Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətinə çevirmək sahəsində yeni daha çətin çağırışlara hazırlığa təkan verən bir fəaliyyət proqramı idi.

Hansı ki, qurultay bu proqramın hər bəndinə uyğun qərarlar qəbul etməli, bütövlükdə partiyanın seçkili orqanının tərkibinin yenilənməsi və yeni proqram sənədinin işlənməsi haqqında partiyanın icra orqanına tapşırıqlar verməli idi.

Ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olan VII qurultayın qərarı ilə Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələri rəhbər tutaraq, 44 günlük müharibədən sonra yaranan obyektiv reallıqları ölkənin beynəlxalq aləmdə artan rolunun və mövcud vəziyyətdə yeridilən xarici, zəngin rifah dövləti yaradılması sahəsində daxili siyasətinin, regionda və ölkədə formalaşmış yeni siyasi konfiqurasiyanın diktə etdiyi vəzifələri özündə əks etdirən yeni proqram sənədi hazırlandı.

"Biz birlikdə güclüyük" şüarı altında hazırlanan bu strateji sənəd müxtəlif səviyyələrdə işçi müzakirələrdən sonra YAP İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli iclasında təsdiq edildi. Proqram hər biri ən müxtəlif sahələrdə partiyanın və onun üzvlərinin qarşısında dayanan vəzifələri nəzərdə tutan bölmələrin daxil olduğu 5 fəsildən ibarətdir.

Proqramın preambula hissəsində Azərbaycanın müstəqilliyinin bərpasını bəyan edən sənədlərin qəbulundan bir il sonra xaos, anarxiya, daxili qarşıdurmalar, xarici təzyiqlər, iqtisadi, sosial və hərbi sahədə tənəzzülə gətirib çıxaran siyasi kataklizmlər nəticəsində müstəqilliyi yenidən təhlükə altında qalan Azərbaycanı düşdüyü ağır və çətin durumdan xilas etmək məqsədilə ortaya çıxan təşəbbüslərin məntiqi nəticəsi olaraq YAP-ın təsis edilməsi, ölkədə demokratik siyasi sistemin və vətəndaş cəmiyyətinin yaranması, bazar iqtisadiyyatı yolu ilə ölkənin inkişaf etdirilməsi sahəsində müvafiq işlərin görülməsi üçün YAP və onun lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı barədə fikirlər yer alır. Ümummilli Liderin rəhbərliyi ilə YAP-ın yaxından iştirakı ilə Azərbaycan dövlətinin keçdiyi şərəfli inkişaf yolu, iqtisadi dirçəliş, milli-mənəvi dəyərlərin adət və ənənələrin müasir beynəlxalq standartların vəhdətindən yoğrulan azərbaycançılıq məfkurəsi və demokratik dəyişikliklər yolu ilə inkişafın müxtəlif mərhələləri barədə müfəssəl məlumat verilir.

"Müasir, qüdrətli və zəngin Azərbaycan" naminə çağırışla onu yerinə yetirməyin uğurlu formulunu təqdim etməklə özünü bir Prezident, YAP-ı isə regionun ən güclü siyasi qüvvəsi kimi tanıtdıran İlham Əliyevin apardığı siyasət ətrafında yaranan birlik, günbəgün artan beynəlxalq nüfuz, dünyanın ən güclü ordularından birinə sahib olmaqla Azərbaycanın itirilmiş torpaqlarını geri qaytarması, ədalət naminə ədalətli müharibə yolu ilə tarixi qələbənin qazanılması faktları əksini tapır.

Proqramda yuxarıda qeyd edilənləri vurğulamaqla YAP-ın Azərbaycanın inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malik qüvvə kimi gələcəkdə də öz məqsəd və vəzifələrini yerinə yetirmək sahəsində əzmkarlıq göstərəcəyinə inam ifadə edilir.

Siyasi dəyərlər və prinsiplər içərisində ilk yeri tutan "Heydər Əliyev yolu" ilə milli və qlobal çağırışların uzlaşdırılması əsasında varisliyə və təkamülə üstünlük verilməklə inkişafın istinad nöqtəsi kimi müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və ənənələrin inkişafı prinsipləri qeyd edilir.

Vurğulanır ki, YAP hakimiyyətə yalnız azad, sərbəst və gizli seçkilər yolu ilə çoxluğun rəyinin üstünlüyünü qəbul edərək gəlməyin tərəfdarıdır, hakimiyyətin mənbəyi kimi xalqın iradəsini ifadə edən xəttin siyasi sistemin əsası olduğunu qəbul edir. Demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi özünün əsas vəzifəsi hesab edir.

Partiyadaxili münasibətlərdə partiya üzvlərinin, ilk növbədə, təşəbbüskarlıq, peşəkarlıq və işgüzarlığa əsaslanan şəxsi inkişafına yalnız sağlam rəqabətə, etik davranış qaydalarının gözlənilməsinə və milli dəyərlərə uyğun nail olunmasını təşviq edir.

Partiya yeniliyin və müasirliyin tərəfdarı kimi çıxış edir, amma milli köklərə bağlılığı, tarixi adət-ənənələri, mənəvi-əxlaqi dəyərləri qorumağı əsas vəzifələrdən biri hesab edir.

Əsas hədəfləri, ilk növbədə, Heydər Əliyev irsinin təbliği və təşviqi, güclü iqtisadiyyat və davamlı inkişaf, inklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı olan YAP-ın hər bir üzvü dövlət və cəmiyyət qarşısındakı öhdəliklərini, partiya özü isə bir siyasi təşkilat olaraq fəaliyyətini şəffaflıq, azad rəqabət və plüralizm kimi prinsiplərə uyğun icra etməklə yerinə yetirməli, ictimaiyyət qarşısında hesabat verməlidir.

Həmçinin vətəndaş cəmiyyətinin inkişafı naminə demokratik dəyərlərə söykənən ictimai münasibətlərin inkişafına, vətəndaş həmrəyliyinə, milli maraqların üstünlüyünə əsaslanan siyasətə dəstək verməli və onu təşviq etməlidir.

YAP-ın proqramı bütün dünya azərbaycanlılarını birləşdirən dəyər olaraq Azərbaycan dilinin inkişafını və mövqeyinin möhkəmləndirilməsini bütün soydaşlarımızın birliyi və həmrəyliyini, milli irsin, mənəvi dəyərlərin qorunmasını, gələcək nəslə ötürülməsini daxili və xarici siyasətin reallaşması sahəsində əsas hədəflər kimi müəyyən edir.

Multikultural dəyərlərin qorunmasını, mədəniyyətlərarası dialoqun qlobal miqyasda inkişafının əhəmiyyətini xüsusi vurğulayır. Elmi, mədəni və humanitar əlaqələrin inkişafını beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin əsas dayaq nöqtələri olduğunu təsdiq edir.

Azərbaycanın yeritdiyi fəal xarici siyasətin uğurlarının, ilk növbədə, milli maraqların əsas götürülməsi ilə bağlı olduğunu, həmçinin beynəlxalq hüququn prinsiplərinə istinad etdiyini qeyd edərək, ikitərəfli və çoxtərəfli əsasda faydalarını vurğulayır. Bundan sonra da bu xəttə sadiq qalaraq ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu, azad cəmiyyət, təhlükəsiz həyat naminə hərbi, siyasi, iqtisadi və sosial sahədə maraqlarımızın qorunması üçün əlverişli daxili və xarici şəraitin yaradılmasına xidməti əsas vəzifə kimi müəyyənləşdirir.

Ordu quruculuğu sahəsindəki nailiyyətlərin bundan sonra da aparılacaq dövlət siyasəti sahəsində Azərbaycanın təhlükəsizliyini daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edir.

Vətən müharibəsində qazanılmış parlaq qələbəni müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həm Silahlı Qüvvələrimizin, həm də Heydər Əliyev yolu ilə Azərbaycanı inkişaf etdirməyi özü üçün amal, onun irsini ideya siyasi məktəb, YAP Sədri və ölkə Prezidenti kimi İlham Əliyevi bütün dünya azərbaycanlılarının Lideri seçmiş həmvətənlərimiz və soydaşlarımızın birliyinin və həmrəyliyinin məntiqi nəticəsi kimi dəyərləndirir.

Ölkədə yaranmış yeni siyasi konfiqurasiyanın daha da möhkəmlənməsi və bölgədə formalaşmaqda olan, artıq ilkin nəticələrini görməkdə olduğumuz yeni reallıqların başlanğıcı və daha artıq istinad nöqtəsi olduğunu vurğulayır.

İşğaldan azad olunmuş ərazilərə böyük Qayıdış prosesində YAP-ın əsas hədəfləri kimi layiqli yaşayış, geniş quruculuq, dayanıqlı məskunlaşma, regionun iqtisadi potensialından səmərəli istifadə, sürətli dirçəliş üçün stimullaşdırıcı tədbirlərin görülməsini əsas hədəflər kimi müəyyən edir.

"Müzəffər Liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" adlı V fəsildə YAP-ın bundan sonra da özünün bütün potensialını müasir, zəngin, qüdrətli Azərbaycanın tərəqqisinə səfərbər edəcəyini bəyan etməklə, Heydər Əliyev ideyalarına sadiq qalacağını, qarşıdakı məqsəd və vəzifələrin məzmun və hədəfləri baxımından həm də daha uzaq gələcəyə istiqamətləndiyini qeyd edir.

Bu günün partiyası olmaq haqqını, gələcəyin möhtəşəm siyasi qüvvəsinə olan iddialarını gerçəkləşdirən YAP-ın Sədri, qalib xalqın Prezidenti, müzəffər ordunun Ali Baş Komandanı, dünya azərbaycanlılarının qurucu və birləşdirici, həm də şəriksiz Lideri İlham Əliyevin rəhbərliyi ilə bu hədəflər getdikcə daha real və daha əlçatandır.

Yüksək intellekt, diplomatik məharət, milli maraqların qorunmasında qətiyyət və prinsipiallıq kimi yüksək şəxsi keyfiyyətləri, dünya liderləri içərisində günbəgün möhkəmlənən nüfuzu ilə seçilən, yorulmaz və fədakar əməyi ilə Azərbaycanı ən yüksək pillələrə qaldıran, özünün və təmsil etdiyi xalqın adını tarixin parlaq səhifələrinə yazdıran bir liderlə Azərbaycan qarşısında daha geniş üfüqlər, daha aydın sabahlar açılmaqdadır.

Bu sabahlara parlaq Günəş kimi doğan Azərbaycanın şəfəqlərinin hər birimizin həyatını və gələcəyini işıqlandıracağına isə bu gün heç kimin şübhəsi yoxdur.

İndi sürətlə dəyişən dünya ilə birlikdə daim yeniləşən, istək, arzu və xəyalların gerçəkləşməsinə öz töhfəsini verən Yeni Azərbaycan Partiyası özünün VII qurultayında təsdiq etdiyi "Yeni Azərbaycançılıq məfkurəsi" adlandıra biləcəyimiz yeni proqramında müəyyən etdiyi məqsədlərinə doğru daha inamla irəliləməkdədir.

"Yeni hədəflərə doğru" yolun açıq olsun, Yeni Azərbaycan!!!

## Bu şəxslərin də pensiyaları artırıldı



2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin edildikdən sonra azı 6 il işləmiş və işləməkdə davam edən 1307 şəxsin pensiyasını yenidən hesablayaraq artırıb.

Nazirlikdən SİA-ya verilən məlumata görə, "Əmək pensiyaları haqqında" Qanuna əsasən, şəxs ona yaşa görə pensiya təyin olunduğu gündən sonra işləməkdə davam edərsə, hər 6 ildən (72 aydan) bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə bölünərək pensiyasına əlavə olunur. "Bu da işləyən pensiyaçıların mənafelərinin daha doğun təminatına, yaşa görə pensiyaya çıxdıqdan sonra işləməkdə davam edənlərin sosial sığorta sistemində iştiraka marağının stimullaşdırılmasına xidmət edir", - məlumatda deyilir.

## Mart ayında 9 gün iş olmayacaq

Gələn ay 8 Mart - Beynəlxalq Qadınlar Günü və Novruz bayramı ilə əlaqədar Azərbaycanda 9 gün iş olmayacaq. Publika.az-ın xəbərinə görə, Beynəlxalq Qadınlar Günü münasibətilə martın 8-i, həftənin çərşənbə axşamı qeyri-iş günüdür.



Martın 20-24-də Novruz bayramı ilə əlaqədar qeyri-iş günləridir. Əmək Məcəlləsinə əsasən, martın 20-i bazar gününə təsadüf etdiyindən iş və istirahət günlərinin yeri dəyişdiriləcək və ayın 25-i qeyri-iş günü olacaq. 26 və 27 mart tarixləri də şənbə, bazar gününə təsadüf etdiyi üçün Novruz bayramı ilə əlaqədar 8 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 və 27 mart) iş olmayacaq. Martın 28-də isə növbəti iş günüdür.

ARAŞDIRMA

# İnsanlar həyatlarını niyə reklam edir?

***Günümüzdə əsas da pandemiya ilə əlaqədar rəqəmsal dünya ilə daha sıx əlaqədəyik. Son dövrlərdə gündəmdə olan "Sosial Dilemma" sənədli filmi, şəxsi məlumatların sosial media tətbiqlərində necə istifadə edilməməsi lazım olduğunu diqqətə yetirir. Keçən il Türkiyədə böyüklərin 74 faizi, yəni 62,7 milyonu internetdən istifadə edir. Bundan əlavə, burada insanlar gündə orta hesabla 7 saat 29 dəqiqə internetdə vaxt keçirirlər.***



”Twitter”, ”Facebook” və ”Instagram” kimi sosial media saytlarından istifadənin psixologiyamıza müsbət və mənfi təsir göstərə bilər. Araşdırmalara görə, dünyada 4,5 milyard internet istifadəçisi var və onların 3,8 milyardı sosial mediadan aktiv istifadə edir. Bu rəqəmlər 2012-ci ildən bəri sürətlə artmaqdadır.

İndi yeni nəslin gündəmindən çıxsa da, ”Facebook” digərlərindən daha tez qurulduğu üçün onun haqqında daha çox araşdırma aparılıb. Bir çox araşdırmalarda ”Facebook”dan istifadənin artması tənhalıq və depressiya hissləri, bəzən isə özünə inamın azalması ilə əlaqələndirilir. Beləliklə, ”Facebook”da vaxt keçirdikdən sonra özümüzdə ”mənalı bir şey etmədim” hisslərini tapırıq. Bu, əhvalımıza pis təsir edir. Eynilə, ”Instagram”dan istifadə etmək də özümüzü digər insanlardan daha pis görməmizə səbəb ola bilər, psixi sağlamlığımıza təsir edər və özümüzü bədbəxt hiss etdirər.

Sosial medianın mənfi təsirlərindən qorunmaq üçün üç strateji metodun olduğunu bildirən türk psixoloq, ”Birincisi, real həyatda tanıdığımız insanları izləməliyik. İkincisi, sosial şəbəkə saytlarından təkcə aktiv istehlakçı kimi deyil, həm də istehsalçı kimi istifadə etmək lazımdır.

”Bəlkə də doğru sual ”Sosial mediadan necə istifadə etməliyik?” yox, ”Necə istifadə etməyək?”-dir” deyən Acarsoy və sözlərini belə davam etdirib: ”Sosial mediadan qeyri-sağlam istifadə etməyin bir çox yolu var. Birincisi, psixoloq. Nyu-Yorkdakı Pace Universitetindən Katerina Lup apardığı araşdırmaya görə, Instagramda daha çox yad, yəni real həyatda tanımadığımız insanları izləmək özümüzə qarşı mənfi hissləri gücləndirə biləcəyi aşkarlanıb. Tədqiqatçılar səbəb kimi mənfi müqayisəni göstərir. ”Hər kəs çox yaxşıdır, çox xoşbəxtdir. Mən niyə beləyəm?” Burada hiylə odur ki, insanlar həmişə o qədər də gözəl və ya yaraşıqlı görünmürlər, o qədər də xoşbəxt deyillər. Amma bunu pozan odur ki, siz real həyatda gördüyünüz insanı tanıyırsınız. Siz bilin ki, o insan reallıqda həmişə xoşbəxt olmur. Söhbət yad insanlara, xüsusən də məşhurlara gəldikdə, müsbət görüntünün saxta və ya real olduğunu mühakimə etmək üçün mənbə nöqtəmiz yoxdur, ona görə də özümüzü onlarla müqayisə edərkən daha pis hiss edə bilərik. Yad adamlar və dostlar və ya ailə arasında izlədikləriniz arasında tarazlıq yaratmaq çox vacibdir. Axınınızda həmişə real həyatda tanımadığınız insanlar olmamalıdır.

Günümüzdə kifayət qədər bütün günü sosial şəbəkələrdə özünü reklam edən insanlar var. Onlar təkcə özləri ilə yanaşı yedikləri, içdikləri, evləri və şəxsi həyatları da reklam edirlər. SİA məsələ ilə bağlı araşdırma apararaq, ekspert, psixoloq və din xadimlərinin fikirlərini öyrənib.





”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova: ”Deyərdim ki, sosial şəbəkələr günümüzdə ən aktual məsələlər sırasındadır. Bu şəbəkə vasitəsi ilə ölkəmizdə və dünyada baş verən hadisələr haqqında operativ məlumatlar almaq, qəzet və jurnalların elektron versiyalarını oxumaq, istənilən sahələrdə bilik əldə etmək, dünyanın istənilən nöqtəsində yaşayan insanlarla virtual ünsiyyət qurmaq, onlayn rejimdə keçirilən forumlarda iştirak etmək mümkündür. Sadaladığım kimi biz sosial şəbəkələrdən düzgün istifadə edərək öz bilik dairəmizi və dünyagörüşümüzü artıra bilərik. Amma çox təəssüf ki, bu gün sosial şəbəkələrdə bir çox insanlar ancaq öz şəkillərini paylaşmaqla məşğuldurlar. Mən şəkil paylaşmağın əleyhinə deyiləm, amma hər gün paylaşmağı da sevmirəm”.

Din xadimi Mircəfər Əyyubov: ”İnsanların öz həyatlarını sosial şəbəkələrdə paylaşması ola bilər hansısa psixoloji travmanın və ya özgüvənsizliyin nəticəsi olsun. Bunlar psixologiyaya aid mövzulardır. Mən dini baxımdan bu paylaşımların bir parçasına diqqət yönəltmək istəyirəm. O da başqalarını rüsvay etmək, başqalarının qüsurlarını göstərmək, qeybətləşmək, böhtan demək, insanları zədələməkdən zövq almaq, insanların şəxsiyyətini sındırmaqdır ki, bunlar ya insanın daxilindəki kinküdurətin, ya da həsədin, paxıllığın məhsuludur. Bəzi hallarda isə bekarçılığın məhsuludur.

Sosial şəbəkələrdə paylaşım edən, kimisə rüsvay edən şəxs heç bilmir işinin nəticəsi nədir. Sadəcə, maraq xatirinə, bekarçılıqdı, hamı paylaşır, mən də paylaşım. Götürür paylaşır, sonra başa düşür nəticəsi nə qədər acıdır. Bu bekarçılığın özü də bir mənfi haldır. İnsanlar bekar qalanda o qədər özlərini düzgün tərbiyə etmirlər ki, başqalarını mənəvi baxımdan məhv etməklə məşğuldurlar. Bu, çox anormal haldır.

İslam dininə görə qeybət virtual da olsa, xarici aləmdə də olsa haram və qadağandır. Yəni, bir nəfər bir nəfərlə rastlaşıb üçüncü şəxsin eyiblərini, qüsurlarını açırsa, onu rüsvay edirsə, onun şantajı ilə, rüsvayçılığı ilə məşğuldursa, bu, haram olduğu kimi, sosial şəbəkədə də kiminsə kimisə sancması, rüsvay etməsi haramdır. Bunların heç bir fərqi yoxdur”.

Psixoloq Zeynəb Eyyubova: ”Ümumiyyətlə, biz psixoloqların belə bir sözü var: ”Danış ki, səni tanıyım”. İnsanlar ən çox nədən danışırsa, ən çox travmaları da oradandır. İndi biz baxmalıyıq ki, sosial şəbəkədə bu qədər şey paylaşmaq nəyisə sübut etməkdirmi?

Məsələn, bir xanım həyat yoldaşının onu sevdiyini sosial şəbəkədə bəyan edirsə, dayanmadan xoşbəxt olduğunu deyirsə, deməli onun orada travması var.

Amma müasir dövrdə xüsusən də tanınmış şəxslərin həyatı insanlar üçün maraqlıdır. Məsələn, bir psixoloq qarşısındakı pasientinə ailəli olub olmadığını, uşağı olduğunu deyə bilər. Bloggerlərin işi budur. Onların da pulu buradan çıxır. Onların qazanc mənbəyi budur. Burada pis heç nə yoxdur. Amma normal insanlar özlərini reklam edirsə, bu, artıq mənfi haldır”.

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

Şəhər sakini Aytac Ali: ”İnsanın özünü sevməsi yaxşı haldır. Lakin özünü sevməklə bəyənmək fərqli anlayışlardır. Özümüzü sevmək və dəyər verməklə biz ətrafımızdakı insanlara da müsbət təsir edirik. Lakin eqoizm dediyimiz nə özümüzə, nə də yaxınlarımıza yaxşı təsir bağışlamır. O zaman insan öz mənfiliklərini görmür. Belə olan halda nəyisə düzəltmək də qeyri-mümkündür.

Qaldı ki sosial şəbəkədə özünü paylaşmaq, bu gördüyümüz iş, insanlara faydalı olan fikirlər, bilgilər ola bilər. Lap olsun şəxsi fotolarımız. Ancaq dərəcəsini qaçırmamaq lazımdır”.

Şəhər sakini Paşa Məmmədov: ”Sosial şəbəkədə bu qədər aktiv istifadə etməyi heç sevmirəm. Yediyimi, içdiyimi, evimi, özümü və maşınımı paylaşmaq isə heç mənlik hərəkətlər deyil. Belə şeylərə çox yadam. Hər kəsin öz şəxsi fikri var. Bu da mənim düşüncəmdir. Özüm etmirəm, amma edənləri də qınamıram. ”İnstaqram”da ən son fotom 1 il öncə paylaşılıb. İldə 2 dəfə fotomu paylaşaram, ya yox. Düşünürəm ki, hər şeyi paylaşmaq lazım deyil. Bu mənim həyatımdırsa, onu necə yaşadığım kimin marağında ola bilər? Yəni, mənim bu gün nə yediyim, hara getdiyim niyə başqasına maraqlı olsun ki?

Şəxsi münasibətini isə sosial mediada paylaşan insanları heç anlamıram. Düşünürəm ki, ailəsinin şəklini paylaşmağı kişilər heç sevməz. Yenə də hər kəsin öz şəxsi fikri var”.

Şəhər sakini Aytac Əliyeva: ”Sosial şəbəkələr hamınızın həyatının mühim hissəsinə çevrilib. Hətta insanlar artıq sosial şəbəkələrdən öz gəlirlərini belə əldə edə bilirlər. Bütün həyatını, gündəlik rejimini artıq insanların əksəriyyəti günlük olaraq bu şəbəkələrdə paylaşır. Mənim fikrimcə, sosial şəbəkə bir paylaşım məcrasıdır, yaxşı günü, pis anı izləyicilər ilə paylaşmaq çox normal haldır. Bəzən bəzi insanlar üçün bu həddindən artıq səmimiyyətsiz və ya ”artıq” bir hərəkət kimi gələ bilər düzdür, ancaq qeyd etdiyim kimi sosial media paylaşım məcrasıdır. Hal-hazırda gündəmdə olan bu məcralara bu qədər anlam yükləməmək tərəfdaşı olsam da, paylaşılan postlar hər kəsin öz seçimidir və hamımız insanların seçiminə hörmətlə yanaşmalıyıq”.

***Ayşən Vəli***

***2020-ci il noyabrın 8-də Qalib Prezident, Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən demişdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"***

# "Qarabağ Azərbaycandır" nidasından "Şuşa İli"nə!

Təhlil




### "ŞUŞA AZAD EDİLMƏDƏN BU ƏMƏLİYYAT TAMAMLANMIŞ SAYILMAZ, YARIMÇIQ QALAR"

Son 18 ildə xalqımızda Şuşa şəhərinin işğaldan xilas olunacağı günün tezliklə gələcəyinə, doğma Qarabağımızın "döyünən ürəyinin" düşməndən azad ediləcəyinə qəti əminlik vardı. Bu inamı, ümidi Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan gücqüdrəti yaratmışdı. Sentyabrın 27-də başlayan əks-həmlə əməliyyatları ilə Silahlı Qüvvələrimiz addım-addım Şuşaya yaxınlaşırdı, bu, dövlətimizin başçısının dediyi kimi, uğura bir nəfəs qədər yaxın olduğumuzdan xəbər verirdi, Ali Baş Komandanımızın Türkiyə mətbuatına verdiyi müsahibələrin birində "Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar" - söyləməsi də bu qələbəyə yönələn ümid və əminliyimizi daha da artırırdı.

Nəhayət, o gün gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

### "ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!"

Prezident İlham Əliyevin noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərkən dediyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözlərinin gerçəkləşəcəyi heç kimdə şübhə doğurmur. Dövlətimizin başçısının qətiyyəti, prinsipiallığı, verdiyi vədə hər zaman sadiq olmağı bu əminliyi yaradır. "Mən Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm",-deyən dövlət başçımız bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Dövlət başçısının Qarabağla bağlı vədlərini də yerinə yetirməsinin şahidi olduq. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, "Mənim sözüm imzam qədər qüvvətlidir".

18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz - Qarabağ Azərbaycandır! - şüarlı haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq! "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir! Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır. Ancaq təəsüf doğuran odur ki, hələ də bəzi məmurlar şəxsi ambisiyalarından əl çəkməyərək çirkin əməllərə əl atır, işğaldan azad olunan torpaqlarda dövlət başçısının dediyi kimi: "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir".

Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada güllələnmiş büstləri erməni vandalizminin şahidləridir. Birinci Qarabağ müharibəsi dövründə ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Lakin ulu öndər Heydər Əliyevin tədbirləri nəticəsində bu büstlər ermənilərdən pulla alınmışdı və artıq onlar Şuşadadırlar.

### QƏLƏBƏMİZİN "ZƏFƏR YOLU" QARABAĞIN TACI OLAN ŞUŞA ŞƏHƏRİNƏ QƏDƏR UZANIR

Şuşanın düşməndən azad edilməsinin və qələbəmizin simvolu olan "Zəfər yolu"nun inşası da davam edir. Ötən il noyabr ayının 16-da təməli qoyulmuş "Zəfər yolu"nun tikintisi ilə bağlı dövlət başçımızın verdiyi sözün reallığını görürük. Dövlət başçımızın dediyi kimi, cəmi 8-9 ayda bütün bu uğurlu işlər görülüb: "Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları - bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir". Bütün bu görülən işlərlə yanaşı, üç aeroportun tikilməsi və növbəti ardıcıl olaraq görülən işlər bir daha onu göstərir ki, Qalib liderimizin sözü ilə əməli üst-üstə düşür. Çünki dövlət başçımızın dediyi bu vədlər də artıq reallığı çevrilməkdədir. Bu gün Azərbaycan xalqı da Qalib Liderimiz Prezident İlham Əliyevin son 18 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Dövlət başçımızın dediyi kimi: "Mən bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, biz hansı işləri görəcəyik, insanlar da bilsinlər".

### "ŞUŞA İLİ" ELAN EDİLMƏSİ AZƏRBAYCANIMIZIN DÜNYAYA TANINMASIDIR

Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yenicə qədəm qoyduğumuz 2022-ci ilin "Şuşa İli" elan edilməsi xalqına, torpağına, Vətəninə olan sonsuz sevgisinin təcəssümüdür. Sərəncamda deyilir: "Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram: 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin".

Dövlət başçısı bildirib: "Azərbaycanın bütün yerlərində inkişaf müşahidə olunur. Regional inkişaf proqramı uğurla icra edilir. Bu il mən bölgələrə çoxsaylı səfərlər sayəsində əlavə imkanların aşkar edilməsi üçün səylər göstərmişəm və mənim səfərlərim müntəzəm xarakter daşıyır. Azərbaycanın bölgələrinə bu il 47 dəfə səfər etmişəm, bu səfərlərin 32-si azad edilmiş torpaqlara olan səfərlərdir. Təkcə Şuşa şəhərinə 7 dəfə getmişəm. Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır. Eyni zamanda, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq. Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm".

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider kimi hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Əlbəttə, Prezident İlham Əliyevin 18 illik prezidentliyinin əsas məqsədi xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi bütün gücü ilə möhkəmləndirməkdir. Əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə əldə etdiyi bu misilsiz nailiyyətlər ümummilli lider Heydər Əliyev siyasətinin təntənəsi, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin xalqına olan sonsuz sevgisinin təcəssümüdür.

Ötən ilin 24 dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 60 illik yubileyini qalib sərkərdə, Müzəffər Ali Baş Komandan kimi Zəfərimizin qürur zirvəsi olan Şuşada qeyd etdi, aldığı yubiley təbriklərinə görə Cıdır düzündən təşəkkürünü çatdırdı. Müzəffər lider fəxrlə diqqətə çatdırdı ki, Şuşaya bu il yeddinci səferidir: "Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

Bəli, hələ bundan 10 il əvvəl, 2011-ci ilin 24 dekabrında 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün İlham Əliyev sərkərdə qətiyyəti ilə dediyi kimi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, elə həmin gün vəd verdiyi kimi işğaldan azad edilən yurdlarımızda böyük quruculuq işlərinə başladı. Bir sözlə, bütün bunlar onu sübut edir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur.

Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu, düzgün siyasət bir daha onu göstərir ki, 2022-ci il də əvvəlki illər kimi, Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Və növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Ermənilər Ermənistanda yaşamaq istəmirlər

## "Joğovurd" qəzeti: Otən il 75 min 571 nəfər erməni ölkəsinə geri qayıtmayıb



***Ermənistan dövləti, cəmiyyəti 44 günlük müharibənin başa çatmasından 1 il 3 aydan çox vaxt keçməsinə baxmayaraq bu savaşın ağır nəticələrindən, sarsıdıcı məğlubiyyətdən hələ də özünə gələ bilməyib. 30 il ərzində uydurma, saxta "ideyalara" əsaslanıb, işğalçı siyasət yürütməyin aqibətini erməni xalqı, lobbisi, hakimiyyəti aydın görür.***

Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi dövrlər belə tam tənəzzül illəri idi. Ən əsası isə Ermənistan Cənubi Qafqazda Azərbaycanın liderliyi ilə formalaşan yeni iqtisadi-ticarət-logistika əməkdaşlığı formatından bu dövlət kənar qalmış, tam təcrid vəziyyətinə düşmüşdür.

Hazırda erməni xalqının əksəriyyəti düçar olduğu ağır vəziyyətin, yaşadığı acınacaqlı durumun səbəbinin məhz işğalçılıq siyasəti olduğunu yaxşı anlayır. Bu vəziyyətə görə işğalçı ölkənin keçmiş prezidentləri Serj Sarkisyan, Robert Koçaryan cütlüyünün keçmiş hərbi xuntasını günahkar kimi qəbul edir. Ötən ilin iyununda Ermənistanda keçirilən parlament seçkilərinin nəticələri də erməni xalqının mövqeyini göstərdi. Ermənilər bu seçkilərdə 10 noyabr Bəyanatının öhdəliklərini, yəni təslimçilik aktının müddəalarını yerinə yetirəcəyi vədi ilə qatılan iqtidar partiyasına mandat verməklə Azərbaycanla əməkdaşlığa səs vermiş oldu. Bu seçim Ermənistan rəhbərliyinə nəticə çıxarmaq üçün şərait yaradır. Belə ki, Ermənistandakı revanşist dairələrin avantürist, sərsəm bəyanatları erməni xalqının böyük hissəsinin mövqeyini əks etdirmir.

İkinci Qarabağ müharibəsinədək Ermənistan özünü "müasir ordusu, güclü iqtisadiyyatı" olan ölkə sayırdı. Lakin müharibə zamanı cəmi 44 günə ordusu darmadağın olan bu işğalçı dövlətin nəinki müharibəyə, hətta ciddi bir müqavimətə belə qadir olmadığı üzə çıxdı.

Artıq Ermənistanı narazılıq dalğası bürüyüb. Ordusu və iqtisadiyyatı böhran vəziyyətində olan bu dövləti tərk edənlərin sayı getdikcə artır. "Joğovurd" qəzetinin yaydığı məlumata görə, ötən il Ermənistanı tərk edən 75 min 571 nəfər erməni ölkəsinə geri qayıtmayıb.

Ümümilikdə isə 762 792 nəfər Ermənistanı tərk edib, onlardan 687 221 nəfəri geri qayıdıb. Digərləri isə ölkələrinə qayıtmaqdan imtina ediblər. Bundan əlavə, ötən ilin birinci yarısında 22 minə yaxın Ermənistan sakini Rusiya vətəndaşlığını qəbul edib. Bu isə son 4 il ərzində qeydə alınan rekord göstəricidir. Məlumata görə, ötən il 161 minə yaxın Ermənistan vətəndaşı "Green card" qazanmaq üçün müraciət edib.

Onu da qeyd edək ki, Ermənistanda məxməri inqilabdan əvvəl, yeni Paşinyanın hakimiyyətə gəlişindən öncə - 2017-ci ildə bu ölkəni tərk edib, geri qayıtmayanların sayı 36 200 nəfər olub. Bu statistika sübut edir ki, əslində, Ermənistan vətəndaşlarının həyatı yaxşılaşmır və əksinə əhalinin həyat səviyyəsi getdikcə aşağı düşür.

**_Cavid Əkbərov_**

# "Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından əhəmiyyətli hadisədir"



*Ağdam rayonunda həyata keçirilən quruculuq və bərpa işləri Prezident İlham Əliyevin böyük qayıdışla bağlı xalqımızın 30 illik arzularının gerçəkləşdirilməsinin göstəricisidir. İşğaldan azad edilmiş bütün ərazilərimizdə ilk növbədə kommunikasiyaların bərpası və yenidən qurulması layihələri həyata keçirildi ki, bu, birinci mərhələnin ən vacib komponentlərindən biri idi.*

Yol və nəqliyyat layihələrinin icrası istər ərazilərimizin minalarla çirkləndirilmiş olması baxımından, istərsə də köhnə infrastrukturun tamamilə dağıdılması səbəbi ilə ən çətin vəzifələrdən biridir. Qısa müddətdə demək olar ki, azad edilmiş ərazilərin böyük bir hissəsində bu işlər çox sürətlə həyata keçirildi. İkinci mərhələ isə enerji layihələrinin icra olunması idi. Bu da özlüyündə mürəkkəb və yenə də təhlükəsizlik məsələləri baxımından olduqca çox diqqət və zaman tələb edən məsələdir. Ancaq Azərbaycan qısa müddətdə bu çətinliklərin öhdəsindən gəlməyi bacardı. Hazırda işğaldan azad edilmiş ərazilərimiz, hər iki iqtisadi rayon, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə elektrik enerjisi təminatı layihələri təkcə bugünkü deyil, eyni zamanda, perspektiv tələbatı da nəzərə almaqla elə icra edilib ki, onlar elektrik enerjisi ilə təchizatın uzunmüddətli təminatçısı olacaq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

O bildirib ki, təkcə son Ağdam səfəri zamanı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 110/35/10 kilovoltluq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağcabədi rayonunda isə "Ağcabədi" yarımstansiyasının açılışlarında iştirak etdilər. Bu yarımstansiyalar, eyni zamanda, ölkəmizin ümumi enerji şəbəkələrinə inteqrasiya edilməklə etibarlı təchizat üçün mühüm təminatçı olacaqlar. Beləliklə, yol və enerji kommunikasiyalarının ən yüksək səviyyədə qurulması Qarabağ iqtisadi rayonunun inkişafı üçün mühüm rol oynayacaq. Şübhəsiz ki, yalnız bundan sonra azad edilmiş ərazilərimizdə sənaye kompleksləri və digər iş yerlərinin yaradılmasından danışmaq mümkündür ki, artıq bu istiqamətdə də paralel olaraq ardıcıl və sistemli addımlar atılmaqdadır. Ağdam səfəri zamanı Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyətli hadisə oldu. Çünki məskunlaşma və böyük qayıdış özlüyündə iş yerlərinin açılması və sosial təminatın əvvəlcədən yaradılmasını tələb edir ki, bu da qayıdış və məskunlaşma problemlərinin həllinə kompleks yanaşmanı şərtləndirir.

"Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin Ağdama səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması, işğaldan azad olunmuş ərazilərdə səhiyyə infrastrukturunun yaradılması, hazırkı dövrə qədər ölkəmizdə müasir səhiyyə infrastrukturunun qurulması işlərinin tərkib hissəsi kimi işğaldan azad olunmuş ərazilərimizdə də səhiyyə xidmətlərini əlçatan edəcək. Bu da öz doğma yurdlarında yenidən məskunlaşan vətəndaşlarımız üçün zəruri sosial və tibbi xidmətin təminatı olacaq. Ən mühüm məsələlərdən biri isə 30 il işğal altında qalmaqla erməni vandalları tərifindən dağıdılan və təhqir edilən mədəni irsimizin bərpası məsələsidir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri mühüm əhəmiyyət kəsb edir. Ağdam Cümə məscidi xalqımızın yüzilliklər boyu dini-mənəvi həyatında mühüm rol oynamış, mənəvi kontekstə olduqca qiymətli abidələrimizdən biridir. Onun bərpa edilməsi, eyni zamanda, mənəvi dirçəlişimiz və bütövlüyümüzün simvollarından birinin bərpası kimi əhəmiyyətlidir. Ona görə də işğaldan azad olunmuş ərazilərimizdə mədəni və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun rolu olduqca böyükdür və xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. Səfər çərçivəsində Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması isə qısa müddətdə doğma yurd yerlərimizə qayıdacağımızın müjdəsi oldu", - deyə Milli Məclisin deputatı qeyd edib.

# Niderlandlı səyyah: "Biz Azərbaycana Qarabağın tarixini öyrənmək üçün gəlmişik"



Mən üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Biz buraya Qarabağ regionunun tarixini öyrənmək üçün gəlmişik. Trend xəbər verir ki, bu fikirləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən niderlandlı səyyah Boris Kester Şuşada olarkən bildirib.

Qarabağda dağıdılmış binaları, eyni zamanda, aparılan tikinti işlərini gördüyünü deyən səyahətçi qeyd edib: "Şuşa çox maraqlı şəhərdir. İnanıram ki, Şuşanın tarixini daha dərindən öyrənəcəm".

***20 noyabr 2020-ci il. Nə gözəl, yaddaqalan tarixə təsadüf etdi Ağdamın ağ gününə qovuşması. Üzünə həsrət qaldığı, dalğası hicranı olan bayrağına qovuşması. Bütün rənglərin təməlində ağ rəng dayanır, deyirlər. Öz bəyazlığı fonunda üç rəngdən yaratdığı üçrəngli bayrağını sinəsinə sancdı, başını dik tutub, "Mən azad oldum, mən doğma Vətənimə qovuşdum",- dedi Ağdam. 44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən aldıq: "Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm.***

# Ağdam: qara günlərdən ağ günlərə doğru



Mətanət Məmmədova
Əməkdar jurnalist

Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iki gün öncə 27 il qara günlərə sinə gərən bu rayonun ağ günlərə qovuşması üçün həyata keçirilən tədbirlərin davamı xarakterini daşıyan növbəti səfərləri zamanı bir daha yaddaşımdan süzülüb axdı və ötən il Respublika Günündə ölkə başçısının Ağdama səfərini xatırlatdı. O səfəri ki, həmin gün Ağdamın Baş Planı təsdiq edildi. Və dövlətimizin başçısının aşağıdakı dəyərli fikirləri Qarabağ zəfəri üzərinə yeni zəfəri əlavə etdi.

Prezident İlham Əliyev: "Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək. Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq".

### Ağdam nura boyanır

Qara günün ömrü az olar. Bəli, qara günün ömrü 27 il olsa da, 27 sentyabrdan başlanan Vətən müharibəsi qısaltdı Ağdamın qara günlərin ömrünü. Müzəffər ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, ağ atlı oğulların düşmənin qara kabusuna çevrilməsi qısaltdı Ağdamın qara günlərinin ömrünü. Ali Baş Komandanımızın da söylədiyi kimi Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən, başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldular. Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər səhifəsini yazan əzəri övladlarının şücaəti ilə Ağdamı ağdamlılara qaytardı. Həmin gün Ağdamın "çöhrəsini" gülümsəyən gördüm...

Budur, artıq o gülümsəmə nura çevrilir. Fevralın 13-də dövlətimizin başçısının və birinci xanımın "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirakları ilə 27 ilin qara libasını əynindən çıxarıb öz tarixi bəyaz donunu geyindi Ağdam. İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xəttinin, Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabelin çəkilməsi, bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xəttinin gətirilməsi bu rayonun ağ günləri, düşməninsə qara günləri deyilmi?

Ağdam Sənaye Parkı yerli istehsalın inkişafına təkan verəcək

Sənayenin inkişafı Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin hər anının ən başlıca prioritetlərindən olub. Çünki sənayenin inkişafı qeyri-neft sektoruna ən böyük töhfə kimi hesablanıb. O mənada ki, ölkədə neft amilindən asılılıq aradan qaldırılsın, sənayenin ayrıca bir sahə kimi inkişafı ilə əhalinin məşğulluğu təmin edilsin. Həyata keçirilən layihələrin nəticəsi olaraq hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli Fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində ölkəmizdə sənaye parklarının sayı 7-yə çatıb. Eləcə də ölkəmizdə 5 sənaye məhəlləsi - Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.

Ümumilikdə işğaldan azad olunmuş ərazilərimizin coğrafiyasını, yeraltı və yerüstü təbii ehtiyatlarını, bu torpaqlardakı mövcud resursları, logistik imkanları nəzərə alınanda Qarabağın gələcək sənaye mənzərəsi gözlər önündə canlanır. Elə bu səbəbdən Ağdam Sənaye Parkının yaradılması da məhz ölkənin yaxın gələcəyə hesablanmış iqtisadi inkişafına xidmət edir. Eyni zamanda bu bölgəyə yeni həyat bəxş edir, insanların öz yurdyuvalarına qayıtmalarına, məşğulluqlarını təmin etmələrinə şərait yaradır, bu tarixi torpaqların zənginliyini, gücünü özünə qaytarır.

190 hektar ərazini əhatə edicək Ağdam Sənaye Parkında tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Ağdam Sənaye Parkının rezidenti "Smartpoint" MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Digər rezident -"Dadaş-N" MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək ki, bu da Ağdamı Ağdama qaytarmaq deməkdir.

### Su gələn arxa bir də gələr...

Bəli,dilimizdə belə bir deyim də var ki, su gələn arxa bir də gələr. Yurd salmaq, ev tikmək nə qədər çətin olsa da, uzun illərə başa gəlsə də, çox insanlar üçün bir ömrə bərabər olsa da, belə imiş Qarabağ torpaqlarının sakinlərinin alın yazısı. Dağıdılacaqmış illərlə qurub-yaratdıqları. Yeməklərindən, geyimlərindən kəsib daşa, quma verib ucaltdıqları yurdları dağıdılacaqmış. İçərisində nə xəyallar qurduqları evlərə həsrət qalacaqmışlar. Nə arzularla əkdikləri ağaclar bar üstündə düşmənin xəyanətkar əllərinə veriləcəkdi. 27 il bu yurdun insanları köçkün həyatı yaşaya-yaşaya tək təsəlliləri Ağdamın ağ günlərini xəyallarında canladırmaq olacaqdı. Amma bir məsələ də var ki, gedənlərin, itirilənlərin hər birini qaytarmaq olar, tək torpaqdan savayı. Qoy yansın, sökülsün, dağılsın evlərimiz. Ta ki torpaqlarımız özümüzünkü olsun, yadlar ona sahib çıxmasın. Qoy evsiz-eşiksiz qalaq, torpağın üzərində süfrə açaq, çörək kəsək, evimiz torpağın üzəri olsun, lakin torpağımız özümüzün olsun. Torpaq varsa, onun üzərində hər zaman gözəl, yaraşıqlı evlər qurmaq mümkündür. Su gələn arxa, bir də gələr, deyib atalarımız. O arxın varlığı ilə ona yenidən su gələ bilirsə, torpağın varlığı ilə də yeni yurdlar salına bilər. Ağdamda da salınır o yurdlar. Sevinir, gülür kəndləri, şəhərləri, insanları.

Ölkə başçısı tərəfindən "Park Forest Otel Ağdam" mehmanxanasının, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binasının, Ağdam Mərkəzi Xəstəxanasının təməlinin qoyulması Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq" kimi dəyərli fikirlərinin bu gün reallaşmasıdır.

### Abidələrin bərpası Ağdamın ağ günüdür

Qədim tarixə malik çoxlu sayda memarlıq və incəsənət abidələri ötən 27 ildə yerlə yeksan olunub Ağdamımızın. XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalası, onlarla muzey, məscid, kitabxana, teatr, məktəb düşmənin vəhşiliyi ilə üzləşib. Meşələr yandırılıb, məhv edilib. Məscidlərdən başqa çirkin məqsədlər üçün istifadə olunub. Lakin vətən oğulları əllərinə silah alıb düşməni torpaqlarımızdan qovduqları kimi, məscidlərimizə də həmin əllərlə təmizlənmək, paklanmaq nəsib oldu. Bu qeyrətli oğulların sayəsində Ağdamın əzan səsi təşnəsinə də son qoyuldu. Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Ağdam bu doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyirdi. 27 il ağ çöhrəsinə qaranlıq çökən Ağdam gülümsəyirdi. Dağıdılmış, viran edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyirdi. Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlmişdi. Minlərlə evin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına verəmək, buraya yeni novraq bəxş etmək üçün gəlmişdi. Ağ günlərin müjdəsi ilə Ağdam gülümsəyirdi. Qələbəsini, azadlığını bayram edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmaları, Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olmaları və dövlətimizin başçısının "Azərbaycan iş adamlarına bu gün burada - Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik",- dəyərli fikirləri səslənirməsi 44 günlük müharibədə olduğu kimi yalnız birlik, bərabərlik, həmrəyliklə Ağdamın ağ günləri əldə edəcəyinə bir mesaj idi.

Bəli, 27 ilin sonunda işğaldan azad olunmuş Ağdam qara günləri arxada qoyub, ağ günlərə doğru sürətlə irəliləyir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Müzəffər Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Zəfər çalan xalqımız bu gün Ağdamın timsalında qarşıda Qarabağın dünyaya nümunə olacaq hər bir bölgəsinin yeni novrağı ilə qürur duyacaqdır. Hər bir qürur isə düşmənə yenildiyini hər dəfə bir daha xatırlatmaqdır.

# “Hayastan” fondu Məhəmməd Mirzəlini dəstəklədi

## *Avropadakı söyüş müxalifətinin düşmənlərimizlə əlbir olduqları növbəti dəfə sübuta yetirildi!*




***Erməni**stanın "Hayastan" fondu Avropada saxta yollarla "siyasi mühacir" adını almış və davamlı olaraq Azərbaycan dövlətinin maraqlarına qarşı sifarişli çıxışlar edən Məhəmməd Mirzəliyə qahmar çıxıb, hətta onu açıq-aşkar dəstəkləyib. S?A-nın əldə etdiyi məlumatına görə, zaman-zaman, hətta mütəmadi şəkildə Ermənistan mediasına Azərbaycan əleyhinə müsahibələr verən söyüş müxalifətinin təmsilçisi Məhəmməd Mirzəli bu dəfə erməni diasporunun dəstəyi ilə Avropa Parlamentinin İnsan Hüquqları üzrə Alt Komitəsində çıxış edib. Daha dəqiq desək, ermənilər tərəfindən yazılan mətni üzündən oxuyub. Hətta o, Azərbaycan dövləti və hökuməti əleyhinə ittihamlar səsləndirməklə qərəzli, düşmən xarakterli çıxışında ona yardım göstərən ayrı-ayrı erməni təşkilatlarına da minnətdarlıq etməyi unutmayıb.*

**Bu ünsürü yalnız Ermənistan erməniləri deyil, qondarma ”dqr” quldur-rejiminin separatçıları da dəstəkləyirlər!**

Əbəs deyil ki, saxtakarlıq, yalan və şantajlar vasitəsi ilə Azərbaycanı hədəfə alan Məhəmməd Mirzəlini Ermənistanın ”Hayatsan” ümumermən milli fondunun və Amerikanın Erməni Milli Komitəsinin üzvləri dəstəkləməklə yanaşı, onun sözlərini erməni seqmentinin sosial şəbəkə səhifələrində də paylaşıblar.

Onların arasında yalnız Ermənistan təmsilçiləri deyil, həmçinin qondarma ”dqr” quldur-rejiminin separatçıları da var ki, Məhəmməd Mirzəli adlı satqın ünsürü dəstəkləyiblər.

Xatırladaq ki, bu ünsür daha əvvəllər də Ermənistan TV-lərinə müsahibələr verərək ölkəmiz əleyhinə çıxışlar edib. Beləliklə, məlum olub ki, düşmən dairələrinin maraqlarına işləyən bu alçaq ünsürün fikirlərini yayan və dəstəkləyən, ona Avropa qurumunda çıxış etməsinə şərait yaradan ermənilər bunlardır: Anait Taşçiyan, Nelli Avetisyan, Dan Vardanyan, Lusine Yagjiyan, Anna Qukasyan, Simon Magakyan, Nazik Demirjiyan, Paul Artinyan, Samuel Felk,Vic Cerami və Linda Berberyan. Bu ünsürlərin hər biri ”Hayastan” fondunun fəallarıdırlar.

**Bu həmin ”Hayastan” fondudur ki, Qarabağda qanunsuz cinayətkar əməllərlə məşğuldur!**


Nelli_Avetisyan @avetis_nelli · 19h
Replying to @Mirzali_FR and @presidentaz
Keep going, speak the truth, show the face of the dictator #aliyev.
Fully understand and support the work that you do for your future and for all of us!
#Stopaliyev
3

Ardem @ardem · 21h
Replying to @Mirzali_FR and @presidentaz
Will be a good day when coup happens. Just wonder if the institutionalized hatred towards Armenians is even reversible and for how many generations needed to pass.
1 4

Sev @Sev96255680 · 20h
Azeri’s are too proud and happy of their

Mirzali Mahammad
@Mirzali_FR
Another nail in the coffin of (@presidentaz) Aliyev’s regime. I’m given an opportunity to speak in the European parliament on 7th of February. I’ll share the details later. Stay tuned and thank you all for your priceless support.

INGE Committee Press @EP_Democ... · 2d
Next Mon in @EP_Democracy:
15h influence operations in , w
@rumeliobserver @ESI_eu @AmbArifMammadov @Mirzali_FR @Jeakav @RSF_inter

Anahit Tashchyan @ananik86 · 20h
Replying to @Mirzali_FR and @presidentaz
@jchribuisson c'est intérresant
2

Narine @NarBarVie · 19h
Replying to @Mirzali_FR and @presidentaz
2

Anna Ghukasyan @AnnaGhukasyan1 · 2h
Replying to @Mirzali_FR and @presidentaz
Stay safe until the Day. Be careful!

Inchvoraya (GETTR: inchvoraya) · 14h
Replying to @Mirzali_FR and @presidentaz
My god stay safe

Lusine Yaghjyan @LusineYaghjyan · 20h
Replying to @Mirzali_FR and @presidentaz
This is excellent! Good luck with your speech! Make him sweat!
6

Dan Vardanyan @VardanyanDan · 19h
Replying to @Mirzali_FR and @presidentaz
Nail in the coffin? Did you not just see EU's approval to provide "economic aid" package to Aliyev in return for gas from Baku?
1 5

Show replies

Արցախցի @FromArtsa... · 19h
Replying to @Mirzali_FR and @presidentaz
Good luck. Hope the justice will be served

Yeri gəlmişkən, onu da xatırladaq ki, bu gün ”Hayastan” fondu Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının nəzarət etdikləri ərazilərdə qanunsuz inşaat işləri ilə məşğul olur, habelə Ağdərədə, Xocalıda, Xankəndidə, Əsgəranda yolların salınması və s. prosesləri həyata keçirir. Belə olan halda Məhəmməd Mirzəlinin separatçılarla, düşmənlərlə əlbir olub Azərbaycan dövlətinin əleyhinə çıxış etməsi həm də onun barəsində ciddi araşdırmaların aparılması tələbini artırır. Yəni açıq-aşkar düşmən mövqeyi sərgiləyən bu ünsürün məhz Azərbaycan qanunları qarşısında cavab verməsi tələbi aktuallığa çevrilməlidir!

***Rövşən RƏSULOV***

# “Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında daha çevik addımlar atmalıyıq”




“Erməni terrorçuları tərəfindən Xocalıda dinc sakinlərə qarşı törədilən soyqırım aktından artıq 30 il keçib. 20-ci əsrin ən dəhşətli soyqırımı aktları arasında yer alan Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində bu illər ərzində çox iş görülüb. Xüsusilə də, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən ”Xocalıya ədalət” kampaniyası ilə dünyaya səs salmağı bacardıq”. ”Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova ”Səs” qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, 10-dan artıq ölkənin parlamenti, ABŞ-ın bir sıra ştatı Xocalı qətliamını soyqırımı kimi tanıyıb: ”Təbii ki, bu, dünyanın Xocalı həqiqətlərini olduğu kimi qəbul etdiyi anlamına gəlmir. Unutmamalıyıq ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, haqq işimizə layiqli dəstək əldə etmək üçün atdığımız addımların qarşısında çox güclü maliyyə və siyasi dəstəyə malik erməni lobbisi var. Bu maneə bizim Xocalı soyqırımını dünyada tanıtmaq siyasətimizin qarşısında daima olacaq. Bu səbəbdən, xüsusilə də 44 günlük Vətən Müharibəsindən sonra qazandığımız möhtəşəm qələbənin fonunda hücum diplomatiyamızı davam etdirməli, Xocalı həqiqətlərinin daha geniş auditoriya tərəfindən qəbul edilməsi işində daha çevik addımlar atmalıyıq. Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz erməni vəhşiliyini heç bir zaman unutmamalı, xalqımızın başına əsrlər boyu gətirilən müsibətləri gənc nəsilə olduğu kimi çatdırmalıyıq”.

***Gülyana***

# “Müharibə tərəflərin heç birinə sərf etmir” - Politoloqların şərhi



Rusiya və Ukrayna arasında gərginliyin müharibəyə çevriləcəyi ilə bağlı gözləntilər var. Bir aydan çoxdur ki, Qərb ölkələrinin siyasətçiləri, həmçinin onların nüfuz agentləri Rusiya və Ukrayna arasında müharibənin bu gün ya sabah başlayacağı haqda ictimai rəy formalaşdırırlar. Rusiyalı politoloqlar Moskvanın belə bir müharbədə maraqlı olmadığını və buna hazırlaşmadığını bldirirlər. Bəs Ukrayna politoloqları vəziyyəti necə qiymətləndirir?

Ukrayna Gələcək İnstitutunun analitiki İlya Kusa hesab edir ki, Qərb regionda sabitliyi təmin edəcək yeni mexanizmlərdən danışarkən iki şeyi nəzərdə tutur: ”Birincisi, Rusiya ilə kompromis tapmaq üçün Ukraynanı Donbassla bağlı Minsk razılaşmalarına əməl etməyə məcbur etməyə çalışacaqlar. İkincisi, Makron eyham vurdu ki, Ukrayna siyasi cəhətdən neytral ölkə olsa, ”Ukrayna məsələsi” həll oluna bilər”.

Ukraynalı politoloq genişmiqyaslı total müharibəyə inanmadığını da bildirib: ”Bu, Rusiya üçün də baha başa gələr, üstəlik, ona heç bir strateji fayda gətirməyəcək. Düşünürəm ki, Qərblə danışıqlar uğursuz olarsa, Rusiyanın məhdud hərbi güc tətbiq etməsi riski var”.

Ukrayna Analitik Mərkəzinin direktoru Oleksandr Oxrimenko isə qeyd edir ki, əslində, indi Rusiya, Ukrayna, Fransa və daha çox ABŞ sadəcə olaraq ”müharibə” mövzusunda özlərini təbliğ edirlər: ”Bu mövzu koronavirus mövzusundan daha çox populyarlaşıb. Nəticədə siyasətçilər müharibə mövzusundan maksimum PR faydası almağa tələsirlər. 2014 və 2015-ci illərdə həqiqətən də Ukrayna ilə Rusiya arasında real müharibə təhlükəsi var idi. O vaxt Rusiyanın Yanukoviçi xilas etmək adı altında Ukraynaya hücum etmək üçün ondan ”Ukraynanın qanuni prezidenti” kimi istifadə etmək imkanı var idi. Amma Krım Moskva üçün kifayət idi”.

Politoloqun fikrincə, ABŞ, Fransa, Aİ, Ukrayna və Rusiya hakimiyyətləri üçün ”hücum etmək istəyirlər” mövzusunda danışmaq faydalıdır: ”Bu, Qərb ölkələrinə öz güclərini artırmağa, ən əsası isə ölkələrinin bütün iqtisadi problemlərini arxa plana keçirməyə imkan verir. Və oradakı problemlər həqiqətən də ciddidir. ABŞ-da superinflyasiya, bitib-tükənməyən tətillər və Fransada iqtisadi artımla bağlı problemlər, Rusiyada iqtisadiyyat neftin qiymətinin qalxmasına baxmayaraq aşağı düşür, Ukraynada qiymətlər və tariflər sürətlənmiş templə yüksəlir. Belə şəraitdə hərbi isteriya və kimin günahkar olması barədə daimi söhbətlər çox sərfəli informasiya sahəsidir. Nə müharibə, nə də Donbass probleminin həlli heç bir hakimiyyətə sərfəli deyil”.

***Elçin Bayramlı***

# "Azərbaycan gəncliyi aparıcı qüvvədir"



***Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov SİA-ya müsahibə verib. Həmin müsahibəni təqdim edirik:***

***- Bildiyimiz kimi, artıq 2022-ci ilə qədəm qoymuşuq. Ölkənin gənclər və idman sahəsində hansı işlər görülür? Biz bu sahədə hansı uğurlar, nailiyyətlər əldə etmişik?***

- Biz 2021-ci ili post-pandemiya dövrünün nisbətən yumşaldığı bir dövrdə idman göstəricilərinin yaxşılaşdırılması ilə başladıq. Bildiyimiz kimi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yeni rəhbərinin kadr islahatları davam edirilir. Bir çox federasiyalarda yenidən seçkilər keçirildi. Seçkilərin keçirilməsi ilə yanaşı olimpiya idman növləri üzrə federasiyalar öz strateji baxışlarını bildirdilər. Medalların əyarı və sayına görə biz statistik olaraq dinamikanı qorumağa çalışdıq. Nəticə etibarilə biz komando, fərdi, qeyri-olimpiya, olimpiya, paraolimpiya və xüsusi olimpiya idman növləri üzrə nəticələrimiz oldu. İdman ilə bağlı infrastrukturun təhlili, eyni zamanda idman qurğularının çatışan-çatışmayan məqamlarının təhlili prosesi davam edir. Bildiyimiz kimi dövlət gənclər siyasəti ilə bağlı proqram bitdi. Yeni proqramın növbəti illəri əhatə edəcəyi istisna deyil. Hazırki 2015-2025-ci il strateji plan üzrə gənclər siyasəti davam etməkdədir. Bundan əlavə eyni zamanda gənclərlə bağlı bir neçə layihələrin icraatı nəzərdə tutulur. Bildiyimiz kimi ilin əvvəlində cənab Prezident İlham Əliyev ilə gənclərin görüşü baş tutdu. Cənab Prezident çıxışında yeni hədəflər və bu hədəflərə doğru gediş, bununla bağlı iş icraatı, qarşıya qoyulan məsələlərin baxış bucağı və bir çox məsələləri özündə cəmləşdirdi. Bir sözlə, 2021-ci ilin yekunları müstəqillik dövrünün növbəti ilinin yadda qalan, nəticələrlə zəngin olan bir il oldu.

***- Məlumdur ki, "Pekin-2022" Olimpiya Oyunlarında Azərbaycan az sayda idmançı ilə təmsil olunur. Bunun səbəbi nədir?***

"Pekin-2022" Qış Olimpiya Oyunlarında iştirak edən dövlətlərin, iştirak edən idmançıların, idman növlərinin sayına baxsaq, görərik ki, qış olimpiya oyunları yay olimpiya oyunlarından fərqli olaraq iqlimi mütləq şəkildə daha soyuq olan ölkələri özündə cəmləşdirir. Azərbaycanı təmsil edən iki milliləşdirilmiş idmançı əsasən fiqurlu konkisürmə üzrə ixtisaslaşıb. Onların məşq proqramının hazırlığı, həmin proqramın xoreoqrafiyası və texniki hazırlığı ölkə hüdudlarımızın kənarında keçirilir. Bu da iqlim və qış idman növlərinin bazasını daha güclü və daha yaxşı şəraitdə olduğu üçündür. Hər iki idmançı lisenziyalarını Avropa oyunlarından qazanıb. Azərbaycanın nümayəndə heyətinin Pekində keçirilən Qış Olimpiya Oyunlarında milli olimpiya komitəsinin rəsmiləri ilə, eyni zamanda bir neçə günlük gənclər və idman naziri Fərid Qayıbov da idmançılarla görüşdü. Digər bir tərəfdən bu il keçirilən olimpiya oyunlarının əsas fərqi ondan ibarətdir ki, burada idmançı sayı, həmçinin tamaşaçı sayı məhduddur. Bildiyimiz kimi bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərimizdə dağ yüksəklikləri və hava şəraitini nəzərə alaraq gələcəkdə bu ərazilərdə qış idman növlərinin təbliğatı ilə bağlı fikirlərini nəzərdən keçirir. Eyni zamanda gənclər və idman nazirliyində qış idman növləri federasiyasında da seçkilər keçirilir. Texnologiyanın inkişafını, Azərbaycanın güclü və qüdrətli dövlət olmasını nəzərə alaq gələcəkdə Azərbaycan nümayındə heyəti daha çox sayda olimpiadada içtirak edəcək. İlk idmançımız final mərhələsinə keçməyi qazanıb. Düşünürük ki, son Avropa oyunlarındakı çıxışı onu deməyə əsas verir ki, idmançımızın olimpiyadadakı nəticəsi müsbət olacaq.

***- Ötən il Azərbaycan gənclərinin hansı problemləri həll olunmamış olaraq qaldı?***

Bugünkü gündə Azərbaycan gəncliyi əhalinin 30-31 faizini təşkil edir. Bunu nəzərə alaraq yeni hədəflər yeni çağırışlar var. Azərbaycan da dünyanın bir parçasıdır. Buna görə də qlobal dünyaya məxsus olan problemlər təəssüflər olsun ki, Azərbaycandan da yan keçmir. Bugünkü gündə pandemiyanın yaratdığı yeni reallıqlar, sosial şəbəkələrin yaxşı tərəfi ilə yanaşı pis tərəfləri, gəncliyin iş ilə təminat məsələləri, cəmiyyətdə özünü təsdiqi kimi problemlər var. Baxmayaraq ki, bununla əlaqədar müxtəlif layihələr, tədbirlər keçirilir. Bundan əlavə eyni zamanda ordudan yeni təxris olunmuş, 44 günlük Vətən müharibəsindən yaralı çıxmış gəncliyimiz də var. Onlar cəmiyyətimizin bir parçasıdır və onlar gələcəkdə bu və ya digər işlərlə təmin olunmalıdırlar. Çünki onlar fiziki məhdudiyyətə baxmayaraq sözünü cəbhədə demiş insanlardır. Problemlər yeni çağırışlarla bağlıdır. Bu gün dünya yeni tranformasiya dövrünə qədəm qoyub. Bir çox ixtisaslar, peşələr tarixə qovuşaraq yeni ixtisaslar, peşələr yaranır. Ümumilikdə isə Azərbaycan gəncliyi üçün yaradılmış şərait, Azərbaycan gəncliyinin cəmiyyətdə təsdiqi və hazırlığı onu göstərir ki, Azərbaycan gəncliyi hər bir cəmiyyətdə olduğu kimi aparıcı qüvvədir.

***- Sizin fikrinizcə bu gün futbolumuz qənaətbəxşdirmi?***

Bu gün Qarabağ, Neftçi, Zirə kimi komandaların çoxalmasına ehtiyac var. Azərbaycan Futbol Federasiyasının Assosiasiyasının qarşıdakı hədəfi komandaların sayının çoxalmasıdır. İkinci bir məsələ isə bölgələrdir. Yəni bölgələrin sayı daha çox olmalıdır. Çünki bölgələrin sayı Premiyer Liqada komandaların təmsil olunması ilə artdıqca həmin bölgənin infrastrukturuna təsir edir. Əlbəttə ki, pandemiya dövrünün yaratdığı problemi nəzərə alsaq, azərkeşlərin sayının daha çox olması oyun keyfiyyətinə də müsbət təsir edir. Doğrudur, pandemiya dövründən əvvəl də bizim bir neçə komandalarımızın derbilərini çıxmaq şərti ilə oyunlar çox olmurdu. Komandaların sayı çox olduqda azərkeşlərin də sayı çox olur. Azarkeşlərin də sayı çox olanda həmin komandanın nəticələri də yaxşı olur. Üçüncü məsələ isə əvəzedici heyətin, yeni nəslin yetişdirilməsi üçün müxtəlif yaş qrupunda olan çempionatlarda rəqabətliyin sayı daha çox olmalıdır.

***- Mütəmadi olaraq sosial şəbəkələrdə, mətbuatda davamlı olaraq futbolumuzun bərbad gündə olduğunu deyirlər. Sizcə, problemin kökündə nələr dayanır? Niyə Azərbaycan futbolu inkişaf edə bilmir?***

- Bildiyimiz kimi tənqid yaxşıdır. Tənqid güclü insana yalnız insana kömək edir. Tənqiddən yaxşı nəticə çıxaran şəxs yalnız irəliyə doğru gedir. Digər tərəfdən tənqid reallığı əks etdirən, sağlam reallığı olan, reallığı göstərə biləcək məqamlara söykənməlidir. Bu baxımdan pasportlaşdırılma futbol ilə məşğul olan idmançıların sayının reallığı əks etdirən rəqəmlərini hədəf olaraq daha çox olmasını hədəfləyək. Çünki yüksək idman nəticəsinib göstərilməsi üçün kütləviliyin təmin olunması mütləqdir. Kütləvilikdən fərdlər seçilir, fərdlərdən komanda formalaşır. Yəni tək peşəkarlar arasında futbol oyunun klublar arasında deyil, eyni zamanda liqaların, o cümlədən həvəskar, birinci və dubl komandalarından ibarət regionların sayının çoxalması, daha çox peşəkar mütəxəsəssislərimizin hazırlanması, uşaq futbolunun inkişafının təmin olunması və bugünkü gündə futbolun reallıqlarını əks etdirən inkişaf tempini görərək hakimlik, kulub-menecment keyfiyyəti qaldırmaq lazımdır. Yəni futbolçularımızı ölkə hüdudlarından kənara çıxmasını təmin etmək lazımdır. Beləliklə də onlara oxşamağa çalışan, onların ardınca getmək istəyənlərin də sayı çoxalacaq. Nəticə etibarilə milli komanda keyfiyyəti yüksək göstəricilərə söykənən futbolçuların sayının artçasına səbəb olacaq.

***- Raqif bəy, Azərbaycan idmançısı dedikdə siz ilk kimi nümunə göstərirsiniz?***

- Namiq Abdullayevi nümunə göstərirəm. Çünki Namiq Abdullayev olimpiya çempionu olaraq sərbəst güləş üzrə Sidneydə, Ondan əvvəl isə 1996-cı ildə Sidneydə gümüş medal qazanıb. Güləşdiyi çəki dərəcəsi 55 kilo çəki dərəcəsi idi. Bu gün 22 il keçməyəinə baxmayaraq Namiq Abdullayev öz çəki dərəcəsini qoruyub saxlaya bilir. Yəni o nizam-intizamlı bir şəxsdir. İkincisi isə hər hansı bir uöuru qazanmaq çətindir. Amma o uğuru qazanıb, qorumaq, bu adın yüksək aliliyini qoruyub saxlamaq heç də hər idmançıya nəsib olmur.

***Arzu Qurbanzadə***

# "15-dək İsrail şirkəti Qarabağda layihələrdə iştirak etmək üçün müraciət edib"



***15-dək İsrail şirkəti Qarabağda layihələrdə iştirak etmək üçün Azərbaycandakı səfirliyə müraciət edib. Bunu Trend-ə özəl müsahibəsində İsrailin Azərbaycandakı səfiri Corc Dik deyib.***

"Daha çox şirkət isə səfirlik vasitəsilə deyil, birbaşa müraciət edib. Hesab edirəm ki, söhbət "ağıllı" şəhərlərin tikintisindən "yaşıl" enerji, kənd təsərrüfatı, xəstəxana, spa mərkəzi tikintisinədək müxtəlif layihələr üçün müraciət edən onlarla şirkətdən gedir. İndi bizdə fəal özəl sektor var, onlar səfirlikdən asılı olmadan fəaliyyət göstərir", - deyə o bildirib.

Səfir qeyd edib ki, İsrail həmişə Azərbaycanı, xüsusən də ərazi bütövlüyü məsələsində dəstəkləyib. "Biz şadıq ki, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzuru bərpa etmək və dirçəltmək imkanı var. Hesab edirik ki, bu, Azərbaycanın digər ölkələrlə əməkdaşlığı üçün böyük imkanlar yaradır. Həmçinin hesab edirik ki, İsrail su ehtiyatlarının idarə olunması, kənd təsərrüfatı, səhiyyə, innovasiyalar, "ağıllı" şəhərlər, "yaşıl" enerji kimi sahələrdə öz töhfəsini verə bilər. Fikrimcə, İsrailin bu sahələrdə Azərbaycanın yaxşı tərəfdaşına çevrilmək imkanı var", - C.Dik deyib.

Onun sözlərinə görə, hazırda İsrailin özəl sektorunun iştirakı ilə kənd təsərrüfatı sahəsində bir neçə layihə hazırlıq mərhələsindədir. "Bu layihələrdən birini Zəngilanda reallaşdırmaq planlaşdırılır. Biz onun reallaşdırılması ilə bağlı nikbin əhval-ruhiyyədəyik. Bu layihə yaxın zamanlarda hazırlanacaq. İsrail şirkəti ferma və "ağıllı" kənd yaradıb işə salmağı planlaşdırır. Biz bu sazişləri hökumət xətti ilə bağlamırıq. İsrail şirkətlər Azərbaycandakı tərəfdaşlarımızla birbaşa müqavilələr imzalayır. Məsələn, Zəngilanda "ağıllı" şəhərin yaradılması ilə bağlı müqaviləyə cavabdeh olan Azərbaycan şirkəti var. Onlar iki özəl şirkət arasında sənədləri imzalalayır. Bu layihə üzrə danışıqlar aparılırdı. Hesab edirəm ki, artıq proses başa çatıb və burada süd istehsalı üçün yüzlərlə və inək və camışın saxlandığı ferma yaradılmalıdır", - deyə o bildirib.

Digər sahələrə gəldikdə, səfir vurğulayıb ki, Ağdamda su sektoru üzrə layihələr mövcuddur və bununla bağlı "Mekorot", "Baran Group" və digər şirkətlərlə danışıqlar aparılıb.

O əlavə edib ki, İsrail şirkətləri həmçinin Qarabağda və Azərbaycanın digər ərazilərində "yaşıl" enerji sahəsində layihələrdə iştirak etməyə hazırdır. "Hazırda Abşeronda, xüsusilə günəş və külək enerjisi sahələrində İsrail şirkətlərini maraqlandıra biləcək layihələr var. Biz bu sahədə şirkətlər arasında əməkdaşlığı genişləndirməyə çalışırıq. Biz bir şeyi yadda saxlamalıyıq: Qarabağın bərpası Azərbaycan üçün tarixi məqamdır. İsrail uzunmüddətli perspektivdə Azərbaycanla dostluq və tərəfdaşlığı hədəfləyir. Biz İsrail təcrübəsi və dəstəyinin tələb olunacağı bütün sahələrdə Azərbaycana kömək etməyə hazırıq", - səfir deyib.

Azad edilmiş ərazilərin minalardan təmizlənməsi ilə bağlı C.Dik bildirib ki, bununla əlaqədar onun Azərbaycan Minatəmizləmə Agentliyində görüşləri olub. "Bir neçə İsrail şirkəti buraya gələrək agentliklə məsləhətləşmələr keçirib. Bu şirkətlərin nümayəndələri həmin ərazilərdə olub və öz təkliflərini də irəli sürüb", - C.Dik vurğulayıb.

## Azərbaycanla İran arasında birbaşa uçuşlar bərpa ediləcək

**Bu ilin mart ayının əvvəlindən Azərbaycanla İran arasında birbaşa uçuşlar bərpa ediləcək. "İki sahil" xəbər verir ki, bunu Azərbaycanın İrandakı səfiri Əli Əlizadə "Twitter" səhifəsində paylaşıb. "Mart ayının əvvəlindən Azərbaycan və İran əlaqələrində növbəti xoş addım atılacaq", - səfir deyib.**



# Azərbaycan demokratik, müasir və innovasiyalar ölkəsidir

***Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması uğurların davamlılığının təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu gün hansı sahəyə diqqət yetirsək tarixi Zəfərimizin yaratdığı reallıqlar fonunda yeniləşməni, təkmilləşməni görərik. Məhz bu baxımdan Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında ən islahatçı ölkə kimi mövqeyini daim qoruyur. Dövlət başçısı İlham Əliyev islahatların labüd olduğunu bildirir və bəyan edir ki, dövrün, zamanın dəyişməsi öz növbəsində qarşıya yeni vəzifələri qoyur.***



Ölkə Prezidenti İlham Əliyev bütün çıxışlarında demokratikləşmə prosesinin sadəcə bir şüar, niyyət olmadığını, Azərbaycanın hərtərəfli inkişafının əsası kimi qeyd edir. "Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir" söyləyən dövlət başçısı bu məqamı da xüsusi qeyd edir ki, uğurla başlayan siyasi dialoq siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcəkdir.

Təbii ki, bu uğurları şərtləndirən əsas amil dövlətimizin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə sabitliyin, qanunun aliliyinin təmin olunmasıdır. Hər bir ölkə iqtisadi əlaqələr qurmaq istədiyi dövlətdə ilk olaraq mövcud ictimai-siyasi duruma, demokratiyanın inkişaf səviyyəsinə diqqət yetirir. Azərbaycan daim dünya üçün açıq, insan hüquqlarının yüksək səviyyədə qorunduğu, demokratik ölkə kimi qəbul edilir. Ölkə Prezidenti İlham Əliyevin xarici KİV-ə müsahibələrində ona ünvanlanan "Siz Azərbaycanda hansı siyasi islahatları uğurlu hesab edirsiniz və siyasi inkişaf üçün, ölkədə siyasi islahatlar üçün daha nə etmək lazımdır" sualına cavabı da bu olur ki, bu mövzu daim bizim fəaliyyətimizin gündəliyindədir, siyasi sistemdə islahatlar aparılmadan iqtisadi sahədə davamlı inkişafa nail olmaq mümkün deyil. Son dövrlərdə bu istiqamətdə çox işlər görülüb. Azərbaycan dünya üçün açıq ölkədir. Ölkəmizdə bütün demokratik təsisatlar mövcuddur, mətbuat azadlığı tam təmin edilir. Azərbaycan internetin azad olduğu ölkədir. İnternet istifadəçilərinin sayı artır və əhalinin təxminən 85 faizinə yaxınlaşır. Toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı da tam təmin edilir. Azərbaycan Avropa Şurasının artıq təcrübəli üzvü kimi cəmiyyətimizin daha da demokratikləşməsinə dair öz üzərinə öhdəliklər götürüb və bunları uğurla yerinə yetirir. Cənab İlham Əliyev, həmçinin bildirir ki, inkişaf etdirilən istiqamətlər arasında ictimai nəzarətin gücləndirilməsini qeyd etməliyik: "Mən bu barədə dəfələrlə fikrimi söyləmişəm və vətəndaşları dəyişikliklərin həyata keçirilməsinə nəzarət məsələsində daha fəal olmağa çağırmışam Biz açıq ölkəyik. Biz bu yolu şüurlu şəkildə seçmişik və həm siyasi, həm də iqtisadi islahatların inkişafını davam etdirəcəyik."

Müstəqilliyinin yenidən bərpasının 30 ilini arxada qoyan ölkəmiz demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə sübut etdiyini atdığı addımları ilə təsdiqləyir. Sabitliyin, qanunun aliliyinin təmin olunduğu ölkədə demokratik inkişafın qaçılmaz olduğunu önə çəkən cənab İlham Əliyev insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımlar atır. "Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq" söyləyən Prezident İlham Əliyev, eyni zamanda, bu fikri də önə çəkir ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü olan ölkədə demokratiya, şəffaflıq yoxdursa, insan hüquqları yüksək səviyyədə qorunmursa, uğurdan danışmaq qeyri-mümkündür.

Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynayan qanunlarımıza, Milli Konstitusiyamıza da zaman-zaman əlavə və dəyişikliklər edilir. Bu da ölkəmizin yeniliklərə, təkmilləşməyə nə qədər maraqlı olduğunu göstərir. 1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan Konstitusiyamıza bu günə qədər üç dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi də insan amilinə verilən dəyəri ortaya qoyur. 2002, 2009 və 2016-cı illərdə keçirilən ümumxalq səsverməsində müzakirəyə çıxarılan əlavə və dəyişikliklərin böyük əksəriyyəti insan hüquqlarının qorunmasına, idarəçilik sisteminin təkmilləşdirilməsinə xidmət edir. 2009-cu il referendumunda "Dövlətin ali məqsədi" maddəsinə belə bir əlavə olundu ki, dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması və yüksək rifah halının təmin edilməsidir. 2016-cı il referendumunda təqdir olunan əlavə və dəyişikliklərdən biri vitse-prezidentlik institutunun yaradılması, eyni zamanda, prezidentlik müddətinin 5 ildən 7 ilə artırılması oldu. Bu da ölkəmizin idarəetmə sistemində təkmilləşməyə xüsusi diqqət yetirdiyini təsdiqlədi. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə də təkmil idarəçilik sistemi yaradılır. Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq bütün şəhər və kəndlər müasir tələblər səviyyəsində qurulucaq. Son illərdə yenilikləri ilə dünyanın diqqətini çəkən Azərbaycan yaxın zamanlarda "ağıllı şəhər" və "ağıllı kənd" layihəsinin uğurlu nəticəsini təqdim edəcək. Yeni texnologiyaların inkişafı fonunda müəyyənləşdirilən hədəflərin reallığa çevrilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı innovasiyalar ölkəsi imicinə yeni əlavələr edir.

Demokratik inkişafın əsas elementlərindən olan azad mətbuatın inkişafına yönələn addımlar da davamlılığı ilə diqqət çəkir. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi illərində həyata keçirdiyi çoxşaxəli islahatların və bu xəttin son 18 ildən artıq dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Ölkəmizdə xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər fəaliyyət göstərir. Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır.

Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev bu günlərdə yeni "Media haqqında" Qanunu təsdiqlədi. Əvvəldə də qeyd etdiyimiz kimi, bütün sahələrdə təkmil islahatlar həyata keçirilir. Mətbuatın cəmiyyətin güzgüsü, eyni zamanda, hər bir ölkənin inkişaf səviyyəsinin göstəricisi olduğunu nəzərə alsaq yeniliklərin, təkmilləşmənin bu sahədə də önəmi özünü aydın şəkildə nümayiş etdirəcək. 1999-cu ildə qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Qanun əgər o dövrün reallıqlarına, tələblərinə uyğun idisə, illər keçdikcə təkmilləşməyə ehtiyaclar yarandı. Qanuna bugünədək 79 dəfə əlavə və dəyişikliyin edilməsi də bunun bariz nümunəsidir. Müasir media anlayışına və yeni çağırışlara cavab verən bir qanunun qəbulu zərurət idi. Medianın İnkişafı Agentliyinin yaradılması, ölkədə aparılan siyasi, iqtisadi, demokratik islahatlar mətbuata da təsirsiz ötüşmədi. Mətbuata aid islahatların bütün istiqamətlər üzrə həyata keçirilməsini nəzərdə tutan "Media haqqında" Qanun bu sahədə çalışanlar üçün hüquqi baza, platforma rolunu oynayacaq və boşluqların aradan qaldırılmasına zəmin yaradacaq.

9 fəsildən, 78 maddədən ibarət olan "Media haqqında" Qanun media subyektlərinin və jurnalistlərin fəaliyyətinin hüquqi müstəvidə tənzimlənməsinə imkan yaradacaq. Atılan bütün addımların təməlində cəmiyyətin informasiya tələbatının daha dolğun şəkildə ödənilməsi, obyektivlik, qərəzsizlik kimi prinsipləri qoruyaraq müstəqil mətbuatın inkişafına dəstək olmaq dayanır. Milli Konstitusiyamıza əlavə və dəyişikliklər edilərkən "Məlumat azadlığı" maddəsi hər zaman diqqətdə olub. Yeni qanunda demokratiyanın əsas tələblərindən olan mətbuat, söz, vicdan azadlığına hörmət əksini tapdığı maddələrdə özünü qabarıq şəkildə büruzə verir. Qanunda KİV-lərin müstəqil fəaliyyəti, hüquqi baxımdan həlli vacib məsələlərin yer alması, media subyektlərinə şəkilin açıqlanması, vəzifə və hüquqlarının göstərilməsi, Media Reyestrinin aparılması qaydalarının müəyyən edilməsi, lisenziyaların verilməsi, jurnalistlər üçün nəzərdə tutulan imtiyazlar və sair maddələrin hər biri müasir KİV-lərin üzləşdikləri problemlərin həllini aradan qaldıracaq imkanlardır. Qanunda yer alan ən önəmli məqamlardan biri də Media Reyestrinin yaradılması və media subyektlərinin, jurnalistlərin bu reyestrə daxil edilmələridir. 78 maddəyə və onlarda əksini tapan ayrı-ayrı müddəalara diqqət yetirsək görərik ki, onların hər biri inkişafa, yeniliyə çağırışdır, eyni zamanda, mətbuatın qarşısında geniş imkanlar açır. Jurnalist peşəkarlığının, məsuliyyətinin artırılması, həmçinin onların sosial problemlərinin həlli yeni qanunda xüsusi yer alıb. Sənəddə media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşib.

Ölkədə infrastrukturun yenilənməsi, bərpası daim diqqətdədir. Fevralın 11-də "Qobu" Enerji Qovşağının açılışında iştirak edən dövlət başçısı İlham Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinə-AZƏRTAC-a müsahibəsində bu fikirləri xüsusi qeyd etmişdir ki, bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb: "Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var. Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilmiş və 1,6 milyard kilovat/saat ixrac olunmuşdur. Bu, rekord göstəricidir. Yəni, biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm daxili tələbat, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edəcək."

Bu mühüm məqam da xüsusi qeyd edilmişdir ki, ölkədə o qədər gözəl investisiya iqlimi yaradılıb ki, xarici şirkətlər Azərbaycana böyük maraq göstərirlər. "Bu marağı biz yaratmışıq" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, əgər neft-qaz sahəsində uğurlu siyasətimiz aparılmasaydı və tərəfdaşlar bizə inanmasaydılar, o cümlədən Azərbaycanın gələcəyinə inanmasaydılar, bu qədər böyük xarici sərmayə qoymazdılar.

Azərbaycanın bu uğurları, iqtisadi və maliyyə imkanları qarşıya qoyulan hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olmağa əsas yaradır. Azərbaycan işğaldan azad edilmiş ərazilərimizdə bütün işləri öz maliyyə imkanları hesabına həyata keçirir. Böyük Qayıdışın reallaşması həmin ərazilərin potensial imkanlarından ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etməyə geniş imkanlar açacaq. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qarşıdakı dövrün hədəflərinin təqdimatıdır.

Qeyd etdiklərimizə söykənərək bu ümumiləşdirməni apara bilərik ki, ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətliyinin bütün dövrlər üçün aktuallığını saxlaması beynəlxalq səviyyədə də təqdir edilir. Azərbaycanın inkişaf modeli hər zaman nümunəvi model kimi diqqətdədir. Bu ondan irəli gəlir ki, Azərbaycan iqtisadi strategiyasını müəyyənləşdirərkən qabaqcıl ölkələrin təcrübəsini nəzərdən keçirir, geniş təhlillər aparılır, atılacaq addımın perspektivləri açıqlanır. İki ildən artıq davam edən pandemiya dövrünün reallıqlarına diqqət yetirmək kifayətdir. İnsan sağlamlığı yüksək səviyyədə qorunur, bununla yanaşı, iqtisadi islahatlar daha da dərinləşdirilir. Vətəndaş məmnunluğunu şərtləndirən amillər sırasında xüsusi yer alan əhalinin sosial müdafiəsi daha da gücləndirilir. Buna əmin olmaq üçün dövlət başçısı İlham Əliyevin 2022-ci il üçün ilk sosial paketinin ardınca imzalanan Fərman və sərəncamlara diqqət yetirmək kifayətdir.

***Yeganə Əliyeva***

# Rus ekspertlər: Erməni separatçıları Qarabağdan qovulmalıdır - ŞƏRHLƏR

***İrəvan, YUNESKO missiyasının Azərbaycana və Ermənistana gözlənilən səfəri, eləcə də işğaldan azad edilmiş ərazilərdə Qafqaz Albaniyası dövrünə aid məbədlərin bir daha ilkin görünüşünə qaytarılması üçün Azərbaycanda komissiyanın yaradılması ilə əlaqədar Azərbaycan tərəfini erməni mədəni və dini irsini məhv etməkdə ittiham edib. Rəsmi İrəvan iddia edir ki, Azərbaycanın yenidən qurduğu Bakının nəzarətinə keçən ərazilərdə bir sıra ilkin erməni kilsələri var. Bakı məsələnin bu cür formalaşdırılması ilə qətiyyən razılaşmır və bildirir ki, ölkə ərazisinin bir hissəsinin işğalı dövründə müasir Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyasının məbədlərində dəyişiklik edən məhz Ermənistan tərəfi olub.***



9-cu əsrdə, həm də onları erməniləşdirməyə məruz qoyub. Bundan başqa, Bakı bəyan edib ki, onlar bir neçə ildir ki, YUNESKO-ya müraciət ediblər ki, təşkilat həmin vaxt işğal altında olan ərazilərə səfər etsin və Ermənistan tərəfindən mədəniyyət və tarixi abidələrin dağıdılması faktlarını qeydə alsın. Lakin İrəvanın aktiv manevələri səbəbindən missiya heç vaxt göndərilməyib.

Azərbaycan həmçinin təkid edir ki, bu missiya Ermənistanın özündə Azərbaycan abidələrinin dağıdılmasını da qeydə alsın.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş, "kabuslar şəhəri" və "Qafqazın Xirosiması" adlandırılan Ağdamda səfərdə olarkən burada tək bir bütöv bina qalmadığını deyərək, işğalçılar tərəfindən bu ərazilərdə törədilmiş vandalizmi bir daha xatırladıb.

Mövzu ilə bağlı rusiyalı ekspertlər "Moskva-Baku" portalına vəziyyəti şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.



**Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov:**

- Abidələr məsələsində mən şübhəsiz ki, Azərbaycana etibar edərdim. Çünki burada bütün faktlar var və Azərbaycanın xeyrinədir. Hamıya məlumdur ki, Ermənistan mahiyyətcə monokultural, Azərbaycan isə multikultural ölkədir.

Burada multikulturalizm milli ideya hesab olunur. Bakının mərkəzində erməni kilsəsi var, Azərbaycanda 35 minə yaxın erməni yaşayır. Azərbaycan rəhbərliyi öz ölkəsindəki bütün millətlərin mədəniyyət və dini obyektlərinə yüksək sivil münasibət göstərir. Və ona görə də Azərbaycanla bağlı hər hansı narahatlıq ifadə etməyə ehtiyac yoxdur. Prezident İlham Əliyev hətta ölkədən kənarda da bəşəriyyətin mədəni irsinin qorunması siyasətini həyata keçirən parlaq təhsilə malik bir insandır.

Ermənistanın azərbaycanlıların milli və dini irsinə tamamilə dəhşətli münasibətlə bağlı çoxsaylı faktlar var. Azərbaycan Prezidentinin Azərbaycan ərazilərinin işğalı dövründə "Ermənistanın törətdiyi əməlləri soyqırım kimi tövsif etmək olar- onun parlaq təzahürü Xocalı hadisələri, urbanosid kimi qiymətləndirilə bilər"- dedikdə onunla razılaşmamaq olmaz. Şəhərlərin dağıdılması, mədəniyyətin məhvi kimi- mədəni irs obyektlərinin dağıdılması, ekosid kimi - təbiətin, ekologiyanın qəsdən məhv edilməsi. Bütün bunları dəhşətli barbarlıqdan başqa cür adlandırmaq olmaz.

Ermənistan həmişə özünü qurban kimi göstərməyə çalışıb, bu, onun təsir alətidir. İndi Ermənistanda belə bir məntiq işləyir: Azərbaycan bizi günahlandırır, ona görə də biz də Azərbaycanı günahlandırmalıyıq. Bu halda beynəlxalq ictimaiyyət isə hər ikisini günahkar kimi qəbul edəcək. Beynəlxalq təcrübədə çox vaxt belə olur. Amma bu halda yox.

Açığı, məhz Ermənistan Azərbaycan ərazilərinin işğalı zamanı dəhşətli vəhşiliklər həyata keçirmiş, özlərini hamıdan "yuxarı təbəqə" hesab edərək öz ultra-millətçiliyini nümayiş etdirmişdir. Və buna görə də Azərbaycanla Ermənistanın mübarizəsi təkcə öz əraziləri uğrunda mübarizə deyil, həm də həqiqət, obyektivlik, millətçiliyə qarşı mübarizədir. Mədəni və dini abidələrin qorunub saxlanması ilə bağlı qarşıdurma isə bu münasibəti qabarıq şəkildə göstərir. Ermənistan həqiqətən də Azərbaycan ərazilərində etdiklərinə görə peşman olmalıdır.

Məlum faktlar var ki, əvvəllər İrəvanda azərbaycanlıların çoxlu sayda mədəni və dini irs obyektləri olub, lakin hər şey dağıdılıb. Millət ultramillətçiliyə büründü və onun necə dəhşətli cinayətlər törətməyə başladığının fərqinə varmadı. Buna misal olaraq Ağdamı göstərmək olar- hər şey tamamilə dağıdılıb, məscidlər şikəst edilib, orada donuz saxlanılıb.

Ardı Səh. 15



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rus ekspertlər: Erməni separatçıları Qarabağdan qovulmalıdır - ŞƏRHLƏR

Əvvəli-Səh-14

Bu, sadəcə olaraq, hörmətsizliyin təzahürü deyil, millətçi nifrətin təzahürüdür. İşğalçı qüvvələrin Ağdamda etdikləri qətiyyən yolverilməzdir.

Bu gün Ermənistanın abidələrin qorunması məsələsində Azərbaycanı guya günahkar kimi göstərməyə çalışması, mənə elə gəlir ki, Ermənistanın ənənəvi siyasətinin davamıdır.

İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra Ermənistan müxtəlif beynəlxalq təşkilatlarda erməni lobbisinin dəstəyindən yararlanmağa çalışır. Bu, birincisi. İkincisi, o, islam dünyasını sıxışdırmağa, bunun üzərində oynamağa, irsi ”məhv edilən” xristian olduğumuza və bununla da dünyada dəstək qazanmağa çalışır, mənfi mənada oynamağa çalışır. Bu, sərt təbliğat yolu ilə edilir. Bir tərəfdən kimsə deyəcək: özünü müdafiə etməyə çalışan kiçik ölkə. Hələ bəzi izahat tapa bilərsiniz. Amma bu, yeniyetmənin cinayət yoluna düşməsini onun pis ailədə tərbiyə alması ilə izah etməklə eynidir. Bəli, bu, bir izahatdır, lakin bu, günahı ondan uzaqlaşdırmır.

Ermənistanın baş naziri Nikol Paşinyan indi, Azərbaycan və Ermənistan tərəfləri arasında sülhə doğru irəliləmək vəzifəsi qoyulduğu halda, Azərbaycan tərəfindən guya ”erməni abidələri”nin dağıdılması məsələsini niyə belə fəal şəkildə təbliğ edir? Çünki Ermənistan lideri faktiki olaraq Azərbaycanla bir çox sahələrdə mübarizəni davam etdirir. O, bunu hakimiyyətdə qalmaq üçün edir. Üstəlik, Ermənistan cəmiyyətinin bir hissəsindən də məhz belə hərəkətlər üçün müraciət var.

Qeyd edim ki, bu gün Ermənistan da 2020-ci ilin payızında baş verəcək müharibə ilə bağlı Azərbaycanı yenidən işğalçı kimi təqdim etməyə çalışır. İrəvanın rəsmi mövqeyi ondan ibarətdir ki, Azərbaycan o zaman Helsinki Yekun Aktının gücdən istifadə etməmək prinsipini pozub. Amma təbii ki, 1990-cı illərin əvvəllərində Azərbaycan ərazilərini işğal edən Ermənistanın bu prinsipi ilk pozması faktı barədə susur. Amma Azərbaycan qanuni olaraq bu əraziləri qaytarıb və BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələri yerinə yetirib, bu isə o deməkdir ki, İrəvan bu torpaqları Azərbaycana qaytarmalı olub. Ermənistan rəhbərliyi bu gün öz nəzarətində olan işğal olunmuş ərazilərin qalan 30 faizinin qorunub saxlanmasını ən mühüm vəzifə kimi qarşıya qoyur. Ona görə də sabah qondarma ”DQR”in ”parlamenti” İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın nəzarətinə keçmiş ərazilərin ”işğal olunmuş” kimi tanınması haqqında qanuna baxacaq. Amma əminəm ki, sonda bu 30 faiz də Bakının nəzarəti altına qayıdacaq.





**PolitRUS portalının rəhbəri Vitali Arkov:**



- Bakının nəzarətinə keçən ərazilərin vəziyyəti işğaldan sonra son dərəcə acınacaqlı olub. Biz görürük ki, bu gün Azərbaycan hakimiyyəti etnik və konfessional mənsubiyyətindən asılı olmayaraq bu ərazilərin, o cümlədən mədəni və dini obyektlərin bərpası ilə necə məşğuldur. Məlumdur ki, Azərbaycan bütün dinlərə hörmətlə yanaşan ölkədir, hakimiyyət müxtəlif millətlərin, dinlərin nümayəndələrinin mədəni və dini ocaqlarının yenidən qurulması, icmaların fəaliyyətinə dəstək üçün vəsait ayırır.

Ona görə də Ermənistan tərəfinin Azərbaycanın nəzarətinə keçmiş ərazilərdə müəyyən obyektlərə nəyinsə təhlükə olması ilə bağlı bütün bu bəyanatları əsassızdır. Bu bəyanatlara güzgü cavabı reallıqdır, Azərbaycanın mədəni və dini abidələri bərpa etməsi, işğaldan sonra necə baxması və Azərbaycanın nəzarəti altında olan ərazilərin qaytarılmasından sonra nəyə çevrilməsidir.





Ermənistan növbəti dəfə özünü qurban kimi göstərməyə, Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla əldə olunan son dərəcə mühüm nizamlanma razılaşmalarının qərarını gecikdirməyə, bu kimi mövzularda söhbət etməyə çalışır. Nəqliyyat dəhlizi, sərhədlərin demarkasiyası ilə bağlı ciddi mövzular gündəmdədir, amma bu məsələlər son dərəcə ləng həll olunur. Azərbaycan Ermənistana öz irsinin real şəkildə məhv edilməsi ilə bağlı iddialar irəli sürür və buna cavab olaraq Ermənistan da öz iddialarını ortaya qoyur: bizim də iddialarımız var.

Ermənistan uzun müddətdir ki, özünü qurban kimi təqdim etmək üçün bu sxemdən istifadə edir, onun üçün ənənəvidir. Ermənistan isə işğalçı olmaqla bu sxemdən fəal şəkildə istifadə edib. Özünü qurban kimi göstərmək faydalıdır. Bunun fonunda siz Avropa İttifaqı və Amerikadan bir qədər pul silkələyə bilərsiniz.

Paşinyan 2020-ci ilin noyabrında üçtərəfli saziş imzalayıb və bununla da Ermənistan verilən ərazilərin Azərbaycana məxsusluğunu tanıyıb. Söhbət Ermənistanın hansı fədakarlığından gedir? Əgər bu sənədlər imzalanmasaydı, hələ də bəzi əsaslandırmalar ola bilərdi. Amma bu torpaqları siz özünüz geri verdiniz. Qarabağın erməni tərəfinin nəzarətində qalan hissəsinə gəlincə, burada İrəvana ancaq deyə bilərik ki, uşaqlar, odla oynamayın.

Ermənistan Azərbaycanla düşmənçilik səhifəsini çevirməlidir. Bunun əvəzinə o, yaraları qurdalamağı seçir. Əksinə, onları ört-basdır edə bilər ki, inciklik aradan qalxsın. Ancaq vəziyyəti qəsdən qızışdırır. Göründüyü kimi, Paşinyan Qarabağ ətrafında bütün bu vəziyyətlə bağlı kifayət qədər radikal olan ictimai rəylə oynamaq istəyir.

Yeri gəlmişkən, Ermənistan bir neçə il YUNESKO-nun missiyasının işğal olunmuş ərazilərə səfərinin qarşısını aldı və əgər buna mane oldusa, deməli, bunun nəyə başa gələ biləcəyini anladı, gizlətməli nəsə olduğunu anladı.

YUNESKO missiyasının Qarabağa gözlənilən səfərinə Fransada keçiriləcək prezident seçkiləri və Merkelin gedişindən sonra Makronun Avropada 1 nömrəli siyasətçi olmaq istəyi prizmasından baxmaq olmaz. Almaniyanın Aİ-nin liderliyi zəifləyib və Makron bu yeri tutmaq istəyir. Nəzərinizə çatdırım ki, hazırda YUNESKO-ya Fransanın nümayəndəsi rəhbərlik edir. Və bu səbəbdən mən missiyanın bəzi təxribatlarını istisna etməzdim, buradakı erməni icması ilə spekulyasiya etməyi də istisna etmirəm, lakin Azərbaycan israr etməlidir ki, missiyanın ekspertləri müxtəlif ölkələri təmsil etsinlər, beynəlmiləl tərkibli olsun ki, qərarlar qərəzli olmasın.

O ki qaldı Qarabağın ”separatçıları” tərəfindən Azərbaycanın nəzarətinə keçmiş ərazilərin ”işğal olunmuş” kimi tanınmasına gəlincə, hələ Azərbaycanla Ermənistan arasında müharibə başlamamışdan əvvəl mən dedim ki, Qarabağ ərazisində heç bir separatçı birləşmə qalmamalıdır. Və əgər nəsə bir icma rəhbərləri varsa, onda yalnız ”müvəqqəti administrasiya” ifadəsi ilə adlandırıla bilər. Separatçıları bu ərazidən çıxarmaq lazımdır. Ermənistana. Ermənistanın nəzarətində olan bu ərazidə yaşayan birinin Azərbaycan vətəndaşı olmasını çox təhlükəli hesab edirəm, çünki o, sadəcə olaraq, gizli partizan ola bilər.

*Tərcümə - Elçin Bayramlı*

SƏS
17 fevral
2022-ci il

# Ronaldo dünya rekordunu təkrarladı!




*“Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo əfsanəvi braziliyalı oyunçu Romarionun rekordunu təkrarlayıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, 37 yaşlı hücumçu buna ötən gecə Premyer Liqanın 18-ci turunun təxirə salınmış görüşündə - "Brayton"la matçda (2:0) fərqlənməklə nail olub. O, klub karyerasında 689-cu qolu vurub.*

Ronaldo bununla da əfsanəvi braziliyalı Romarioya məxsus dünya rekordunu təkrarlayıb. Qeyd edək ki, Kriştiano ”Sportinq”də 5, ”Mançester Yunayted”də 133, ”Real”da 450, ”Yuventus”da 101 qol vurub.

# Alimlərdən vacib xəbərdarlıq: Çox meyvə yemək bu orqanı sıradan çıxarır!

*Meyvələrin tərkibində olan vitamin və minerallar sağlamlığımız üçün çox faydalıdır. Lakin alimlər xəbərdarlıq edir ki, meyvələrin fruktoza ilə zəngin olması onları qaraciyər üçün təhlükəli edir. Saglamolun.az bildirir ki, fruktozanın həddindən artıq miqdarda qəbulu qaraciyərin piylənməsinə səbəb olur.*

Qaraciyərin piylənməsi çox təhlükəli haldır. Onun nəticəsində qaraciyərdə iltihab yaranır, qaraciyər sirrozu və xərçənginin riski artır.

Bir çoxların fikrinə görə, qaraciyərin piylənməsinin səbəbi yağlı qidaların həddindən artıq miqdarda qəbuludur. Ancaq bu belə deyil. Bunun əsas səbəbi məhz şəkərdir - həm qlükoza, həm də fruktoza.



Bunu nəzərə alaraq mütəxəssislər gün ərzində yalnız 2 porsiya meyvə yeməyi tövsiyə edirlər (məsələn, 1 porsiyanı 1 alma və ya 1 banan və ya 1 dilim qarpız və s. təşkil edir). Bundan çox yox. Həmçinin meyvələri eyni vaxtda deyil, günün müxtəlif saatlarında yemək lazımdır (məsələn, səhər 1 alma, günorta 1 banan və s.).

Qaraciyərin piylənməsi tək qaraciyərin özünə deyil, digər orqanlara da ziyan vurur - həzm prosesləri pozulur, damarlarda xolesterinin yığılması sürətlənir. Həmçinin qaraciyərin piylənməsi mədəaltı vəzinin fəaliyyətinə çox mənfi təsir edir, 2-ci tip diabetin riskini artırır.

Mütəxəssislər qaraciyərin sağlamlığı üçün qəhvə və kifayət qədər su içməyi, qulançar yeməyi, fiziki aktiv olmağı tövsiyə edirlər.

# Azərbaycanda MÜHÜM YENİLİK: Bu xərcləri dövlət qarşılayacaq

“Azərbaycanda ekstrakorporal (süni) mayalanma bir dəfə dövlət vəsaiti hesabına həyata keçiriləcək”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin son plenar iclasında deyib.

”Azərbaycanda ekstrakorporal (süni) mayalanma bir dəfə dövlət vəsaiti hesabına həyata keçiriləcək”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin bu gün keçirilən plenar iclasında deyib.



# Böyrəkləri tam təmizləyən resept: 2 soğan və 2 litr su

*Böyrək ən mühüm orqanlardan biridir. O toksinlərin qandan süzülməsinə və detoksifikasiyaya görə cavab verir. Buna görə də onu qorumaq və sağlamlığına nəzarət etmək lazımdır. Əks halda, əsl dəhşətə çevriləcək ciddi fəsadlarla üzləşə bilərsiniz. Çünki böyrəklərin iş orqanizmi təmizləməkdən ibarətdir, əgər onlar öz funksiyasını yerinə yetirə bilməzsə, onda bütün zəhərli maddələr bədəndə toplanacaq. Publika.az bu yazıda oxucuları böyrəklərin təmizləyən təbii müalicə vasitəsilə tanış edir.*

**İnqrediyentlər:**
- **2 ədəd çiy soğan;**
- **2 ədəd limon;**
- **3 dəstə cəfəri;**
- **2 litr su.**

**Hazırlanma qaydası:**

Suyu qazana tökub qaynadın. Doğranmış soğan dilimlərini, iki limon suyunu və cəfərini qaynamış suya əlavə edin. İki saatdan çox soyumasını gözləyin. Sonra qarışığı süzgəcdən keçirin.

2 litr müalicəvi suyu gün ərzində 5-6 porsiyaya bölmək olar. Çünki onun sidikqovucu xassələri çox güclüdür və bu içkini həftədə yalnız 3 gün istifadə etmək olar. 1 və ya 2 həftədən sonra detoksifikasiya prosesini təkrarlayın.



Böyrəklərin təmizlənməsi zamanı daha çox duzda olan natrium istehlakını məhdudlaşdırmalısınız, həmçinin doymuş yağlar, şəkər və digər zərərli ərzaqlardan qaçmaq lazımdır. Əksinə, qida rasionunda tərkibi su ilə zəngin olan meyvə və tərəvəzlərə yer verin. Paxlalı bitkilər, göbələk və balıq da yaxşı seçimdir.

Əks göstəriş: Bu içki bəzi insanlarda xoşagəlməz reaksiya yarada bilər. Odur ki, soğan suyu turşu reflüksündən əzab çəkənlərə, hipertoniya və hipoglikemiya olan xəstələrə məsləhət deyil.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**